1. Hüququn anlayışı, mahiyyəti və funksiyaları haqqında bəhs edin. Obyektiv mənada vo subyektiv mənada hüququ fərqləndirin .

Hüquq dövlət tərəfindən müəyyən edilən və ya sanksiyalaşdırılan, insanların davranışını tənzimləyən ümumməcburi normalar sistemidir. O, cəmiyyətin sosial-iqtisadi tələbatlarını əks etdirir və ictimai münasibətlərin nizamlanmasını təmin edir.

Hüququn mahiyyəti müxtəlif nəzəriyyələrdə izah edilir. Pozitiv nəzəriyyə hüququ dövlətin yaratdığı məcburi normalar kimi qəbul edir. Təbii hüquq nəzəriyyəsi hüququ insanın doğuşdan malik olduğu təbii hüquqlara əsaslandırır. Tarixi hüquq məktəbinə görə hüquq cəmiyyətin adət-ənənələri ilə birlikdə inkişaf edir. Psixoloji nəzəriyyə hüququ insanların psixoloji tələbatlarından , marksist nəzəriyyə isə sosial-iqtisadi münasibətlərdən irəli gələn hadisə kimi təsvir edir.

Hüququn əsas funksiyalarına tənzimləyici, mühafizəedici, inteqrasiyaedici və humanist funksiyalar daxildir.
Tənzimləyici funksiya hüququn cəmiyyətdə davranış qaydalarını müəyyən etməsidir; kiminsə hüquq və vəzifələrini, münasibətlərin necə qurulacağını göstərir.

Mühafizəedici funksiya hüquq pozuntularına qarşı dövlət tərəfindən sanksiya tətbiq olunması və hüquqların qorunması ilə bağlıdır.
İnteqrasiyaedici funksiya müxtəlif sosial qrupları vahid hüquqi çərçivədə birləşdirir və cəmiyyətdə stabilliyi təmin edir.
Humanist funksiya isə insan hüquq və azadlıqlarının qorunmasına, insan ləyaqətinin müdafiəsinə yönəlir və hüququn insana xidmət edən mahiyyətini göstərir.

Hüquq iki mənada işlənir: obyektiv və subyektiv. Obyektiv hüquq dövlətin müəyyən etdiyi və hamı üçün məcburi olan davranış qaydalarının məcmusudur. Subyektiv hüquq isə qanunun şəxsə verdiyi konkret davranış imkanını ifadə edir, məsələn mülkiyyət və ya seçki hüququ.

2. Hüquq pozuntusunun və hüquqi məsuliyyətin anlayışları, növləri haqqında bəhs edin.

Hüquq pozuntusu — dövlət tərəfindən müəyyən edilmiş

hüquq normalarının pozulmasıdır. Bu, ictimai nizamın və cəmiyyətin normal fəaliyyəti üçün təhlükə yaradan davranışdır. Hüquq pozuntusu yalnız fərdi şəxsin və ya qrupun hərəkəti ilə məhdudlaşmır, həm də sosial və dövlət maraqlarına ziyan vura bilər. Hüquq normalarının ümumi məcburi xarakteri pozulduqda dövlət onun qarşısını almaq və nəticələrini aradan qaldırmaq üçün tədbirlər görür.
Hüquqi məsuliyyət isə hüquq pozuntusuna görə dövlətin tətbiq etdiyi məcburi tədbirlər sistemidir. Başqa sözlə, hüquqi məsuliyyət pozuntuya görə subyektin üzərinə qoyulan hüquqi nəticədir. Bu, hüququn qorunması və ictimai intizamın təmin edilməsi mexanizmidir. Hüquqi məsuliyyət dövlət tərəfindən təmin edilir və hüquq normalarının sistemli şəkildə icrasını təmin edir.
Hüquq pozuntusunun növləri arasında cinayət, mülki hüquq pozuntuları, inzibati pozuntular və əmək hüququ pozuntuları göstərilə bilər. Cinayətlər dövlətə və ya fərdlərə ciddi ziyan vurduqda yaranır, mülki hüquq pozuntuları şəxslərarası mülkiyyət və müqavilə hüquqlarının pozulmasını ifadə edir, inzibati pozuntular dövlət qaydalarının və idarəçilik normalarının pozulması ilə bağlıdır, əmək hüququ pozuntuları isə işçi və işəgötürən hüquqlarının pozulmasıdır.
Hüquqi məsuliyyətin növləri də hüquq pozuntularına uyğun olaraq dəyişir. Cinayət məsuliyyəti həbs, cərimə və digər cəzaları əhatə edir, mülki məsuliyyət zərərin ödənilməsi və müqavilə pozuntusunun aradan qaldırılmasını nəzərdə tutur, inzibati məsuliyyət inzibati cərimə və xəbərdarlıqlarla müşayiət olunur, əmək məsuliyyəti isə intizam tənbehi, işdən çıxarılma və kompensasiyanı əhatə edir.
Bu baxımdan, hüquq pozuntusu və hüquqi məsuliyyət bir-birini tamamlayan anlayışlardır: biri hüququn pozulmasını, digəri isə pozuntuya görə tətbiq olunan dövlət tədbirlərini ifadə edir.

3. Normativ hüquqi aktların məkana, zamana və şəxslərə göre qüvvəsi nəyi ifadə edir?

Normativ hüquqi aktların məkana, zamana və şəxslərə görə qüvvəsi həmin aktın tətbiq dairəsini müəyyən edən əsas hüquqi anlayışlardır. Məkana görə qüvvə normativ hüquqi aktın hansı ərazidə tətbiq olunduğunu ifadə edir. Adətən qanunlar yalnız dövlətin suveren ərazisində qüvvədə olur və həmin ərazidə yaşayan və ya fəaliyyət göstərən şəxslərə

şamil edilir. Bəzi hallarda xüsusi ərazi rejimləri və ya xüsusi iqtisadi zonalar üçün əlavə hüquqi normalar müəyyən edilə bilər.

Zamana görə qüvvə normativ hüquqi aktın nə vaxt qüvvəyə mindiyini, hansı müddətdə tətbiq olunduğunu və qüvvədən düşmə vaxtını göstərir. Qanunlar, adətən, dərc edildiyi tarixdən müəyyən müddət sonra qüvvəyə minir və geriyə şamil edilmir. Zamana görə qüvvə hüquqi sabitlik və hüquqi münasibətlərin aydınlığını təmin edir, yəni aktın hansı dövrdə baş vermiş hadisələrə tətbiq olunub-olunmadığını müəyyənləşdirir.
Şəxslərə görə qüvvə normativ hüquqi aktın kimlərə şamil edildiyini göstərir. Əksər hüquqi aktlar dövlət ərazisində olan bütün şəxslərə — vətəndaşlara, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə şamil edilir.
Bununla yanaşı, diplomatik toxunulmazlığı olan şəxslər, xüsusi statuslu qruplar və ya yalnız müəyyən kateqoriyaya aid olan şəxslər üçün istisnalar mövcud ola bilər.

Beləliklə, normativ hüquqi aktların məkana, zamana və şəxslərə görə qüvvəsi hüquqi normanın tətbiq çərçivəsini müəyyən edir və onun harada, nə vaxt və kimlər üçün hüquqi nəticə yaratdığını göstərir.

4. Hüquq normalarının anlayışı və daxili quruluşunu izah edin, əlamətlərinə görə təsnifləşdirin.

Hüquq normaları – dövlət tərəfindən müəyyən edilən, cəmiyyətdə insanların davranışını tənzimləyən ümumi məcburi qaydalardır. Bu normalar ictimai münasibətlərin sabitliyini və hüquqi nizam-intizamı təmin edir. Hüquq normalarının əsas mahiyyəti ondan ibarətdir ki, onlar insanların hüquq və vəzifələrini müəyyən edir, icazə verilən və qadağan olunan davranış sərhədlərini göstərir və hüquqi münasibətlərin ardıcıllığını qoruyur.

Hüquq normalarının daxili quruluşu üç əsas elementdən ibarətdir: hipotez, dispozisiya və sanksiya.
Hipotez – normanın tətbiq olunduğu halı və şərtləri göstərir. Yəni hansı vəziyyət baş verdikdə norma işləyəcək.
Dispozisiya – həmin vəziyyətdə şəxsin necə davranmalı olduğunu müəyyən edir, icazə verilən və ya qadağan edilən hərəkəti göstərir.

Sanksiya isə norma pozulduqda tətbiq olunan hüquqi nəticəni, yəni məsuliyyət tədbirini müəyyən edir.

Hüquq normalarının əlamətlərinə görə təsnifatı müxtəlif meyarlara əsasən aparılır:

1.Tənzimlədiyi ictimai münasibətlərə görə – konstitusiya, mülki, inzibati, cinayət, əmək və s. hüquq normaları.
2.Hüquqi təsir xarakterinə görə – qadağanedici normalar, məcburedici normalar və icazəverici normalar.

3.Tətbiq dairəsinə görə – ümumi, xüsusi və lokal normalar. Ümumi normalar bütün ölkədə qüvvədə olur, xüsusi normalar müəyyən sahəyə, lokal normalar isə təşkilat və müəssisələrə aid edilir.

4.Hüquqi qüvvəsinə görə – Konstitusiya normaları, qanun normaları və qanunaltı akt normaları.

5.Tətbiq üsuluna görə – maddi hüquq normaları və prosessual hüquq normaları. Maddi normalar hüquq və vəzifələri müəyyən edir, prosessual normalar isə həmin hüquqların həyata keçirilməsi qaydasını tənzimləyir.

Beləliklə, hüquq normaları cəmiyyətin hüquqi sisteminin əsas hissəsidir və onların anlayışı, quruluşu və təsnifatı hüquqi nizamın düzgün işləməsi üçün mühüm əhəmiyyət daşıyır.

5. Normativ hüquqi aktlann kolliziyasının həlli qaydalarının tetbiqi haqqında bəhs edin.

Normativ hüquqi aktların kolliziyasının həlli qaydaları, müxtəlif normativ hüquqi aktlar arasında uyğunluq olmayan hallar baş verdikdə hansı aktın tətbiq olunmalı olduğunu müəyyən edir. Hüquqi sistemdə vahidliyin təmin olunması üçün belə ziddiyyətlər müəyyən qaydalar əsasında aradan qaldırılır.

Kolliziya zamanı ilk növbədə aktların hüquqi qüvvəsi əsas götürülür. Yəni hüquqi qüvvəsinə görə daha yüksək səviyyədə olan normativ akt aşağı səviyyəli aktdan üstündür və tətbiq zamanı üstün tutulur. Məsələn, qanun qanunaltı aktlardan, Konstitusiya isə bütün digər hüquqi aktlardan üstündür.

Digər halda, əgər ümumi xarakterli aktla müəyyən sahəyə aid olan xüsusi akt arasında ziddiyyət yaranarsa, tətbiq zamanı xüsusi xarakterli normativ akt əsas götürülür . Çünki o, həmin münasibətləri daha dəqiq və birbaşa tənzimləyir .

Eyni səviyyəli iki akt arasında ziddiyyət olarsa, burada onların qəbul edilmə tarixinə baxılır. Daha yeni tarixli normativ hüquqi akt əvvəl qəbul olunmuş aktdan üstün hesab edilir və tətbiq olunur .

Bu qaydalar hüquqi sistemdə ardıcıllığın , aydınlığın və stabilliyin təmin olunmasına kömək edir və normativ aktların qarşılıqlı əlaqəsini tənzimləyir .

6. Normativ hüquqi aktlarının AR Konstitusiyasının 148_ci maddəsinə əsasən ierarxik məzmununu izah edin.

Qanunvericilik sistemi müxtəlif növ normativ hüquqi aktların mexaniki yığını deyil, dəqiq, qarşılıqlı münasibətlər sisteminə və təsir mexanizminə malik olan bütöv bir sistemdir. Qanunvericilik sisteminin bir sistem kimi mövcudluğunu şərtləndirən iki amil vardır: 1) müxtəlif qanunlarla eyni predmetlərin nizamlanması; 2) aktlar arasında tabeçilik-iyerarxiya münasibətlərinin olması. İyerarxiya əlaməti qanunvericiliyi qanunların mexaniki yığınından fərqləndirən başlıca əlamətdir. Ona görə də konstitusiya məhz iyerarxiyanı formalaşdırmaqla bütövlükdə qanunvericiliyə təsir edir. Qanunvericilik sisteminə aşağıdakı anlayışı vermək olar: qanunvericilik sistemi ictimai münasibətləri tənzimləyən, bir-biri ilə iyerarxiya əlaqəsinə malik normativ hüquqi aktların məcmusudur. Qanunvericilik sisteminin iyerarxiya pilləsindəki akt ondan yüksəkdə duran akta zidd olmamalıdır.
AR Konstitusiyasının 148-ci maddəsinə görəqanunvericilik sistemi aşağıdakı aktlardan ibarətdir :
1. Konstitusiya
2. Referendumla qəbul edilmiş aktlar

3. Qanunlar
4. Fərmanlar
5. AR Nazirlər Kabinetinin qərarları
6. Mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları
7. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi

7. Biznes hüququ milli hüququn sahəsi kimi nəyi səciyyələndirir?

İstənilən hüquq sahəsini öyrənərkən ilk növbədə həmin hüquq sahəsinin tənzimləmə predmetinə və metoduna diqqət yetirmək lazımdır.

Biznes hüququ-özündə sahibkarlıq fəaliyyəti subyektlərinin təsis olunmasını və fəaliyyəti ilə bağlı münasibətlərin hüquqi nizamlanmasının xüsusi və ümumi metodlarını,davranış normavə qaydalarının vəhdəti təşkil edir.Biznes qanunları biznes sahiblərinin qanun çərçivəsində fəaliyyət göstərmələrini və bizneslərini qorumalarını təmin etmək üçün müəyyən edilmiş qaydalardır. Biznes qanunları iş dünyası kimi qarışıq və çox vaxt təhlükəli olan bir mühitdə sabitliyi təmin edən,biznes əməliyyatlarının ədalətli həyata keçirilməsini təmin edən təlimatlar toplusudur.Bu qanunlar müvəffəqiyyətli bir iş idarə etməyin vacib hissəsidir.

Hüquq sahəsində hüquqi tənzimləmənin metodu-həmin hüquq sahəsi ilə tənzimlənən münasibətlərə təsir göstərən üsul və vasitələrin məcmusudur.Biznes hüququnun da daxil olduğu mürəkkəb hüquq sahələrində adətən hüquqi tənzimləmənin bir deyil,bir neçə metodların birləşməsindən istifadə olunur.

Biznes hüquq münasibətlərinin subyektləri bərabər və tabeçilik münasibətlərində ola bilərlər.Sahibkarlar arasında olan üfüqi münasibətlər və sahibkarla dövlət arasında olan şaquli münasibətlər bir-birindən fərqlənir.Biznes hüququnun predmentinə həm üfüqü münasibətlər həm də şaquli münasibətlər aiddir.

Biznes hüququnda eynilə sahibkarlıq və kommersiya hüququnda istifadə olunan əsas hüquqi nizamasalma metodu-razılaşdırma metodudur.Dövlət tənzimlənməsi prosesində isə məcburi göstərişlər metodu da tətbiq

edilir.Biznes hüquq münasibətlərinin tənzimlənməsi üçün tövsiyyə metodundan istifadə edilə bilər.

Biznes hüququ sahibkarlıq münasibətlərini və onlarla çox bağlı olan qeyrikommersiya münasibətlərini tənzim edir.

8. Fiziki şəxsin xəbərsiz itkin düşmüş və ölmüş elan edilməsi hansı qaydada həyata keçirilir ?

Mülki hüquqla tənzimlənən ictimai münasibətlərin əsas iştirakçılarından, yəni biznes hüquq münasibətlərinin subyektlərindən biri fiziki şəxslərdir. Fiziki şəxs psixoloji-bioloji (fizioloji) varlıq, yəni insan kateqoriyasından olan subyekti ifadə etmək üçün işlədilən termindir. «Fiziki şəxs» kateqoriyası özündə «vətəndaş», «xarici dövlət vətəndaşı» və «vətəndaşlığı olmayan şəxs» kimi üç cür anlayışı birləşdirir.

Fiziki şəxsin mülki (əmlak) dövriyyədə seçilməsini təmin edən əsas fərdiləşdirmə vasitəsi iki cür olur:

• fiziki şəxsin adı. Hər bir fiziki şəxsin ad hüququ vardır. O, mülki hüquq münasibətlərində özünün konkret müəyyən adı ilə çıxış edir.

• fiziki şəxsin yaşayış yeri. Yaşayış yeri seçmək hüququ fiziki şəxsin hüquq qabiliyyətinin məzmununa daxil olan hüquqi imkanlardan biridir. Beləki, fiziki şəxslər yaşayış yeri seçmək hüququna malikdirlər.

Şəxsin uzun müddət yerinin məlum olmaması hüquqi cəhətdən qeyri-müəyyənliyə səbəb olur. Bu cür qeyri-müəyyənlikisə vətəndaşlann, təşkilat, idarə və müəssisələrin, habelə dövlətin hüquq və mənafelərini pozur. Mümkün ola biləcək arzuolunmaz nəticələrin yaranmasının qarşısını almaq üçün mülki qanunvericilikxüsusi xarakterli müvafiq qaydalar (normalar) müəyyən edir. Həmin qaydaların (normaların) məcmusu iki hüquq institutunu yaradır. Onların vasitəsiilə hüquqi cəhətdən qeyri-müəyyənlik hallan aradan qaldırılır. Bu institutlara aiddir:

• xəbərsiz itkin düşmə institutu;

• ölmüş elan etmə institutu.

Qanunvericilik yalnız məhkəmə yolu ilə fiziki şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi haqqında qayda müəyyən edir.Maraqlı şəxslər müvafiq şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi barədəərizəilə məhkəməyə müraciət edirlər. Maraqlı şəxs rolunda itkin düşən şəxsin əri (arvadı), öhdəsində və himayəsində olan qeyri-əmək qabiliyyətli valideynlər, onun borclu olduğu kreditorlar və digər kateqoriya şəxslər çıxış edə bilərlər.Məhkəmə yalnız qanunda nəzərdə tutulan hüquqi tərkib olduqda fiziki şəxsin xəbərsiz itkin düşmüş elan edilməsi barədə qərar qəbul edə bilər. Bu hüquqi tərkib iki faktın məcmusundan ibarətdir:

• fiziki şəxsin olduğu yerin məlum olmamasından, yəni onun harada olması haqqında məlumatın yoxluğundan;

• fiziki şəxsin ikiil ərzində yaşayış yerində görünməməsindən.

Fiziki şəxs yalnız məhkəmə qaydasında ölmüş elan edilə bilər. Maraqlı şəxslər özlərinin yaşadıqları yerin məhkəməsinə şəxsin ölmüş elan edilməsi barədə ərizəilə müraciət edirlər, Məhkəmə həmin ərizəyə baxaraq, yalnız müvafiq hüquqi tərkib olduqda, şəxsin ölmüş elan edilməsi barədə qərar qəbul edə bilər. Bu hüquqi tərkib üç hüquqi faktdan ibarətdir:

• fiziki şəxsin uzun müddət yaşayış yerində olmamasından;

• fiziki şəxsin olduğu yer haqqında məlumatın olmaması və bu məlumatın alınmasının qeyri-mümkünlüyündən ;

• fiziki şəxsin olduğu yer barədə axırıncı (son) məlumatın alındığı gündən beş il müddətin keçməsindən

9. Biznes hüquq münasibətlərinin subyekti kimi fiziki şəxslərin hüquq subyektliyi nədə ifadə olunur?

Mülki hüquqla tənzimlənən ictimai münasibətlərin əsas iştirakçılarından, yəni biznes hüquq münasibətlərinin subyektlərindən biri fiziki şəxslərdir. Fiziki şəxs psixoloji-bioloji (fizioloji) varlıq, yəni insan kateqoriyasından olan subyekti ifadə etmək üçün işlədilən termindir. «Fiziki şəxs» kateqoriyası özündə «vətəndaş», «xarici dövlət vətəndaşı» və «vətəndaşlığı olmayan şəxs» kimi üç cür anlayışı birləşdirir və əhatə edir.

Hüquq subyektliyi - şəxsin hüquq münasibətlərinin iştirakçısı olması üçün onun sosial-hüquqi imkanında ifadə olunur. Hüquq subyektliyi, hüquq qabiliyyəti və fəaliyyət qabiliyyətinin məcmusundan ibatərdir. Hüquq qabiliyyəti dedikdə, fiziki şəxsin mülki hüquqlara malik olmaq və mülki-hüquqi vəzifələr daşimaq qabiliyyəti başa düşülür. Hüquq qabiliyyəti fiziki şəxsin anadangəlmə təbii keyfiyyəti deyildir. O, fiziki şəxsə təbiət tərəfindən anadangəlmə verilmir .Bu imkan ona dövlət tərəfindən hüquq əsasında, mülki hüquq normaları vasitəsiilə verilir və o, ayrılmaz və özgəninkiləşdirilməz xarakterə malikdir. Hüquq qabiliyyəti fiziki şəxs doguldugu an əmələ gəlir, öldüyü an xitam olunur. Mülki hüquq qabiliyyəti bərabərlik prinsipinə əsaslanır. Bu prinsipə görə, bütün fiziki şəxslərin hüquqlara malik olmaq və vəzifələr daşimaq imkanı eynidir və hüquq qabiliyyətinin dərəcəsinə görə müxtəlif qruplara bölünmürlər.

Mülki qanunvericilikdə hüquq qabiliyyətinin məzmununa daxil olan mülki hüquq və vəzifələrin təxmini siyahısını verilir.Bu, onunla izah edilir ki, bazar münasibətləri əsasında iqtisadi dövriyyənin və əmtəə-pul əlaqələrinin inkişafı şəraitidə mülki hüquqla tənzimlənən ictimai münasibətlərin əhatə dairəsi durmadan dinamik surətdə genişlənir və artır; bu münasibətlər, sözsöz, inkişaf edir. Fiziki şəxslərin mülki hüquq qabiliyyətinə daxil olan əmlak və şəxsi qeyriəmlak hüquqları Konstitusiyada nəzərdə tutulmuşdur. Konstitusiya əsasən beynəlxalqhüquqi sənədlərdə göstərilən mülki hüquqları təsbit edir. Yəni, « Insan hüquqlarının ümumi Bəyannaməsi», « Mülki və siyasi hüquqlar barədə Beynəlxalq pakt", «Uşaq hüquqları barədə Konvensiya» və s.

10. Hüquqi şəxslərin qanunvericilikdə müəyyən edilmiş, lazımi və zəruri əlamətləri haqqında bəhs edin.

Hüquqi şəxs — qanunla müəyyən edilmiş qaydada yaradılan, dövlət qeydiyyatından keçmiş, öz mülkiyyəti və müstəqil məsuliyyəti olan qurumdur. O, öz adından hüquqlar əldə etmək, müqavilələr bağlamaq və məhkəmədə iddiaçı və ya cavabdeh kimi çıxış etmək imkanına malikdir.

Hüquqi şəxsin hüquqi şəxs sayılması üçün aşağıdakı dörd əsas əlamət vacibdir:

* Təşkilati vahidlik — hüquqi şəxsin müəyyən daxili struktura, idarəetmə orqanlarına və bölmələrə malik olmasıdır. Bu vahidlik onu bir məqsəd ətrafında birləşdirilmiş sistem halına gətirir.

* Ayrı-ayrı əmlaka malik olması — hüquqi şəxsin müstəqil fəaliyyət göstərməsi üçün özünə məxsus torpaq, bina, pul və digər maddi vasitələri olmalıdır.

* Mülki dövriyyədə müstəqil çıxış etmək — hüquqi şəxs öz adından müqavilələr bağlaya, hüquqlar əldə edə və məsuliyyət daşıya bilir.

* Müstəqil əmlak məsuliyyəti və məhkəmədə iştirak imkanı — hüquqi şəxs öz öhdəliklərinə görə yalnız öz əmlakı ilə cavabdeh olur və məhkəmədə iddiaçı və ya cavabdeh kimi çıxış edə bilir.

Hüquqi şəxsin həm hüquq, həm də fəaliyyət qabiliyyəti onun yarandığı andan eyni vaxtda əmələ gəlir və ləğv olunduğu an xitam tapır. Bu xüsusiyyət onu fiziki şəxslərdən fərqləndirir.

11. Hüquqi şəxslərin dövlət qeydiyyatının məqsədləri

Hüquqi şəxslərin yaradılması müəyyən mərhələlərdən ibarət olan bir prosesdir. Bu prosesin yekun və son mərhələsi dövlət qeydiyyatı adlanır (MM 48.1maddəsi). Həmin mərhələnin mahiyyəti ondan ibarətdir ki, bu mərhələdə müvafiq quruma dövlət tərəfindən rəsmən hüquqi şəxs statusu verilir. Daha dogrusu, bu mərhələdə müvafiq qurum dövlət tərəfindən rəsmi surətdə hüquqi şəxs kimi tanınır. Hüquqi şəxslərin dövlət qeydiyyatı dedikdə, hüquqi şəxs statusu almaq istəyən qurumların mülki hüquq qabiliyyətinin (mülki hüquq subyektliyinin) təsdiq edilməsi, hüquqi statusunun müəyyənləşdirilməsi və onlar barəsində məlumatların (qeydlərin) hüquqi şəxslərin dövlət reyestrinə daxil edilməsi başa düşülür. Hüquqi şəxslərin dövlət reyestri isə Azərbaycan Respublikasının ərazisində qeydiyyata alınmış hüquqi şəxslər və digər qurumlar barəsində məlumatlar (qeydlər) məcmusudur.Dövlət qeydiyyatı vacib və mühüm hüquqi əhəmiyyəti olan mərhələdir. Hüquqi şəxsin yaradılması prosesinin başa çatması məhz bu mərhələ ilə bağlıdır. Belə ki, dövlət qeydiyyatına alındığı andan hüquqi şəxs yaradılmış hesab edilir, mülki hüquq və fəaliyyət qabiliyyətinə malik olur.

12. Hüquqi şəxslərin növləri

Hüquqi şəxslərin təsnifı , onların ayrı-ayrı növlərdə qruplaşdırılması və birləşdirilməsi deməkdir. Bunun köməyi və vasitəsi ilə , iqtisadi (əmlak) dövriyyədə iştirak edən hüquqi şəxslərin bütün növləri barədə doktrinal (elmi) biliklər əldə edilir .

Hüquqi şəxslər müxtəlif əsaslara görə təsnif edilir . Bu əsasların dairəsi kifayət qədər genişdir. Həmin əsaslara (meyarlara) şamil edə bilərik:mülkiyyətin formasına görə hüquqi şəxslərin təsnifı; fəaliyyət məqsədlərinə görə hüquqi şəxslərin təsnifı; yaradılma qaydasına görə hüquqi şəxslərin təsnifı; təsisçilərin tərkibinə görə hüquqi şəxslərin təsnifı və s.

1. Mülkiyyətin formasına görə hüquqi şəxslərin hüquqi şəxslərin dörd növü fərqləndirilir :

- dövlət hüquqi şəxsləri;
- bələdiyyə hüquqi şəxsləri;
- qeyri-dövlət (xüsusi) hüquqi şəxsləri;
- qarışıq hüquqi şəxslər.

Dövlət hüquqi şəxsləri dövlət mülkiyyəti əsasında yaradılır və fəaliyyət göstərir. Bu hüquqi şəxslər dövlət əmlakının bazası əsasında əmələ gəlir .

Bələdiyyə hüquqi şəxsləri odur ki, onlar bələdiyyə mülkiyyəti əsasında yaradılır və fəaliyyət göstərir. Bu cür hüquqi şəxslərin maddi bazasını bələdiyyə əmlakı təşkil edir.

Qeyri-dövlət (xüsusi) hüquqi şəxsləri odur ki, onlar xüsusi mülkiyyətə əsaslanır və fəaliyyət göstərir

Qarışıq mülkiyyət əsasında yaradılan hüquqi şəxslərə qarışıq hüquqi şəxslər deyilir .

2. Yaradılma qaydası kimi əsasa (meyara) görə hüquqi şəxslər iki növə bölünür:

- qabaqcadan icazə alınmaqla yaradılan hüquqi şəxslər;
- qabaqcadan icazə alınmadan normativ qaydada yaradılan hüquqi şəxslər.

3. Təsisçilərin tərkibi kimi əlamətə (meyara) görə hüquqi şəxslər bölünür:

• təsisçiləri yalnız hüquqi şəxslər ola bilən hüquqi şəxslərə (məsələn, hüquqi şəxsin ittifaqları);

• təsisçisi yalnız dövlət ola bilən hüquqi şəxslərə (məsələn, dövlət müəssisələri);

• təsisçiləri, bəzi istisnalarla, hüququn istənilən subyekti ola bilən hüquqi şəxslərə (məsələn, kooperativ, səhmdar cəmiyyəti, fond, ümumiyyətlə, yerdə qalan bütün hüquqi şəxslər).

4. İştirakçıların (təsisçilərin) malik olduqları hüququn xarakterinə görə

hüquqi şəxslərin üç növü fərqləndirilir :

• təsisçilərinin (iştirakçılarının) öhdəlik hüququna malik olduqları hüquqi şəxslər:

« təsisçilərin (iştirakçıların) əmlak barəsində əşya hüququna (mülkiyyət hüququna və məhdud əşya hüququna) malik olduqları hüquqi şəxslər;

• təsisçilərin (iştirakçıların) əmlak hüququna malik olmadığı hüquqi şəxslər.

Təsisçilərin (iştirakçıların) öhdəlik hüququna malik olduqları hüquqi şəxslər odur ki, təsisçilər (iştirakçılar) həmin şəxslərə verdikləri əmlak üzərində mülkiyyət hüququnu itirirlər və bunun əvəzində onlar öhdəlik hüququ, yəni hüquqi şəxsdən tələb etmək hüququ əldə edirlər

13. Hüquqi şəxslərin yaradılma qaydalarının neçə üsulu fərqləndirilir , Hər üsula uyğun xarakterik olan mərhələləri olaraq izah edin.

Hüquqi şəxs onun təsis edilməsi və nizamnaməsinin hazırlanması yolu ilə yaradılır (MM 45.1maddəsi). Mülki hüquq elmi hüquqi şəxslərin yaradılmasının tarixən ənənəvi üç üsulunu fərqləndirir . Beləliklə , hüquqi şəxslərin yaradılmasının əsasən üç üsulu vardır . Sxem1. Onlara hüquqi şəxslərin yaradılması qaydaları da deyilir :

sərəncamvermə üsulu (qaydası);

icazəvermə üsulu (qaydası);

qabaqcadan icazə almadan normativ üsul (təqdimedici normativ üsul).Sərəncamvermə elə bir üsuldur ki, bu üsul hüquqi şəxsin xüsusi dövlət qeydiyyatı olmadan təkcə təsisçinin sərəncamı (qərarı) əsasında yaradılmasını nəzərdə tutur . Başqa sözlə desək, sərəncamvermə üsuluna görə təsisçinin qərarı (sərəncamı) hüquqi şəxsin yaradılması üçün kifayət edir və yetərlidir . . Sərəncamvermə üsulu üçün üç əsas mərhələ xarakterikdir :
1) təsisçi (mülkiyyətçi və ya səlahiyyətli orqan) tərəfindən təşəbbüs (sərəncam) aktının verilməsi ;
2) təşkilati iş (kadrların seçilməsi, vəsait ayrılması və s.);
3) təsis sənədlərinin (nizamnamənin) təsdiq edilməsi.
Icazəvermə elə bir üsuldur ki, bu üsul hüquqi şəxsin yaradılmasına səlahiyyətli orqanın qabaqcadan icazə (razılıq) verməsini nəzərdə tutur . Bu üsul onunla xarakterizə olunur ki, hüquqi şəxsin yaradılması təşəbbüsünü gələcək iştirakçılar (təsisçilər) irəli sürürlər . Onlar əvvəlcə hüquqi şəxsin yaradılması barədə qərar qəbul edirlər . Sonra isə hüquqi şəxsin yaradılması üçün icazə (razılıq) almaq məqsədilə müvafiq səlahiyyətli orqanlara müraciət edilir . Icazəvermə üsulu dörd əsas mərhələdən ibarətdir :
1) təsisçinin təşəbbüs aktı;
2) səlahiyyətli orqanın icazə aktı;
3) təşkilati iş;
4) təsis sənədinin (nizamnamənin) qeydiyyata alınması.
Qabaqcadan icazə almadan normativ üsul (təqdimedici normativ üsul) elə bir üsuldur ki, o, hüquqi şəxsin yaradılması üçün hər hansı bir üçüncü şəxsin, o cümlədən dövlət orqanının icazə (razılıq) verməsini nəzərdə tutmur , dövlət orqanının qabaqcadan icazə (razılıq) vermək səlahiyyətini istisna edir . Bu cür icazə qanunun normalarında ümumi formada nəzərdə tutulmuşdur ki, həmin normalar müxtəlif növlü hüquqi şəxslərin yaradılmasının bütün hallarına aiddir .
Normativ üsulla hüquqi şəxsin yaradılması bir neçə mərhələni əhatə edir :
1) təsisçilərin təşəbbüs aktı;
2) təşkilati iş;
3) səlahiyyətli orqanın yoxlama (nəzarət) işi.

14. Hüquqi şəxslərin yenidən təşkilinin mahiyyəti və səbəblərini,həyata keçirlmə prosesini izah edin.

Yenidən təşkil xüsusi hüquqi prosesdir, bu prosesə hüquqi

şəxsin təsisi və eyni zamanda ləğv edilməsi proseduralarının xüsusiyyətləri məxsusdur. Şirkət yalnız təsis olunma yolu ilə deyil, həmçinin mövcud olan hüquqi şəxsin yenidən təşkil edilməsi ilə yaradıla bilər. Bu iki üsulun fərqi ondan ibarətdir ki, yenidən təşkil nəticəsində yaranan şirkətə özündən əvvəlki mövcud olan şirkətin (şirkətlərin) hüquq və öhdəlikləri ötürülür. Bununla yanaşı, yenidən təşkil prosesində bir çox hallarda hüquqi şəxsin fəaliyyətinin bitməsi baş verir, bu da onu ləğv olunmaya oxşar edir. Lakin ləğv etmə zamanı ləğv olunan təşkilatın hüquq və öhdəlikləri yenidən təşkil prosesindən fərqli olaraq, digər şəxslərə keçmir. Qanunvericiliyə əsasən yenidən təşkilin beş növü vardı.

- Birləşmə - iki və ya daha çox şirkətin fəaliyyətinin bitirilməsi və onların hüquq və öhdəliklərinin ötürülməsi ilə yeni şirkətin yaranması.
- Qoşulma - bir və ya daha çox şirkətin fəaliyyətinin bitirilməsi və onlardan birinin (və ya daha çoxunun) hüquq və öhdəliklərinin digər şirkətə ötürülməsi.
- Bölünmə - şirkətin bütün hüquq və öhdəliklərinin yeni yaradılan şirkətlərə ötürülməsi ilə fəaliyyətini dayandırması.
- Ayrılma - fəaliyyətini dayandırmadan hüquq və öhdəliklərinin bir hissəsinin ötürülməsi ilə bir və ya bir neçə şirkətin yaradılması
- Çevrilmə - şirkətin təşkilati-hüquqi formasının dəyişdirilməsi. Azərbaycanda yenidən təşkil prosesi bir neçə qanunvericilik aktının tələbinə əsasən həyata keçirilir.'

15. Hüquqi şəxslərin ləğvi prosesi hansı mərhələlərdən ibarətdir,
İflas prosesinin mahiyyəti nədə ifadə olunur

Şirkətin ləğvi onun hüquq və öhdəlikləri üzrə hüquqi varisliyinin olmaması ilə fəaliyyətinin dayandırılması üsuludur. Hüquqi şəxslərin ləğv olunmasının ümumi şərtləri MM-in 59-61-ci maddələrində əks olunub. Şirkətin hüquq və öhdəliklərinin hüquqi varislik qaydasında digər şəxslərə ötürülmədən fəaliyyətinin dayandırılması ləğvetməni yenidən təşkil formalarından fərqləndirir. Şirkət könüllü qaydada iştirakçıların ümumi yığıncağının qərarı ilə və ya məcburi qaydada səlahiyyətli dövlət orqanlarının tələbi ilə məhkəmə qərarı ilə ləğv oluna bilər. Şirkətin ləğv edilmə prosesini üç mərhələ ayırmaq olar:

1-ci mərhələ - şirkətin ləğv olunması barədə məlumatın

elan edilməsi; " MM-nin 103.5-ci maddosi MM-nin 60.2-ci maddəsi MM-nin 59.6-cı maddəsi

2- cimərhələ - aralıq ləğvetmə balansının tərtib edilməsi;

3-cü mərhələ - ləğvetmə prosesinin başa çatması (ləğvetmə balansının tərtib edilməsi).

İflas prosesi, iflas haqqında işə baxılması və onun həlli üzrə elə bir fəaliyyətdir ki, bu fəaliyyət qanunla müəyyənləşdirilmiş xüsusi prosessual qaydada həyata keçirilir və ödəmə qabiliyyəti olmayan hüquqi şəxsin müflis elan edilməklə ləğvinə yönəlir. İflas prosesi iflas haqqında qaldırılmış iş üzrə icraat deməkdir. Onun əsas məqsədi ödəmə qabiliyyəti olmayan hüquqi şəxsin borclarının ödənişini münasib qaydada tənzimləməkdən, kreditorların tələblərini maksimum təmin etməkdən, bu şəxsi borclardan azad etməkdən və ona yenidən sahibkarlıq və təsərrüfat fəaliyyəti ilə məşğul olmağa imkan verməkdən ibarətdir.

16.

Hüquqi şəxsin təsis sənədləri haqqında bəhs edin

Əgər hüquqi şəxsin NÜMAYƏNDƏLİYİ VƏ FİLİALI təsis edilirsə, onda aşağıdakı sənədlər təqdim edilməlidir :

baş müəssisənin notariusda təsdiq olunmuş və ya müvafiq ölkədə Azərbaycan Respublikasının səfirliyində leqallaşdırılmış hüquqi şəxsin nizamnaməsi;

notariusda təsdiq olunmuş və ya müvafiq ölkədə Azərbaycan Respublikasının səfirliyində leqallaşdırılmış hüquqi şəxsin qeydiyyat haqqında şahadətnaməsi;

notariusda təsdiq olunmuş və ya müvafiq ölkədə Azərbaycan Respublikasının səfirliyində leqallaşdırılmış hüquqi şəxsin nümayəndəliyinin təsis edilməsi barədə qərar;

qeydiyyat üçün lazımı sənədləri imzalamağı, dövlət orqanlarına müraciət etməyi və bununla bağlı bütün hərəkətləri etmək üçün müvəkkil şəxsin adına notariusda təsdiq olunmuş və ya müvafiq ölkədə Azərbaycan Respublikasının səfirliyində leqallaşdırılmış etibarnamə.

17. Hüquqi şəxsin nümayəndəlik və filialların mahiyyəti və yaradılma zərurəti haqqında bəhs edin.

Ümumi qaydaya görə, hüquqi şəxslər, adətən, olduqları yerdə fəaliyyət göstərirlər. Nümayəndənin rəhbəri olan fiziki şəxs isə tam mülki fəaliyyət qabiliyyətinə malik oldugu üçün hüququn subyekti qismində üçüncü şəxslərlə hüquq münasibətinə daxil ola bilər. Belə halda hüquqi nəticə, yəni mülki üquq və vəzifələr nümayəndəlik və onun rəhbəri üçün yox, hüquqi şəxs üçün əmələ gəlir. Yalnız dövlət qeydiyyatına alındıqdan sonra xarici hüquqi şəxsin Azərbaycan Respublikasının ərazisində yaratdıqları xüsusi (ayrıca) bölməsi nümayəndəlik statusu əldə edir. Nümayəndəliyin dövlət qeydiyyatına alınması qaydası və təşkilati-hüquqi əsasları xüsusi qanunla müəyyən edilir. Nümayəndəliyin fəaliyyət göstərməsi üçün onun kifayət qədər əmlak bazası olmalıdır. Həmin əmlakın mülkiyyətçisi nümayəndəlik yox, hüquqi şəxs hesab edilir. Ona görə də nümayəndəliyin fəaliyyəti ilə bağlı olaraq yaranan öhdəliklər (borclar) üçün nümayəndəlik yox, hüquqi şəxsin özü məsuliyyət daşıyır.

Nümayəndəlik kimi filial da hüquqi şəxs tərəfindən yaradılır. Nümayəndəlik kimi filial da dövlət qeydiyyatına alınır və dövlət qeydiyyatı orqanında aparılan dövlət reyestrinə daxil edildiyi andan o, yaradılmış hesab edilir. Nümayəndəlik kimi filial da hüquqi şəxs tərəfindən təsdiq edilən əsasnamə əsasında fəaliyyət göstərir. Nümayəndəlik kimi filial da hüquqi şəxs statusuna malik olmayıb, hüquqi cəhətdən müstəqil deyil. Onun hüquq qabiliyyəti və buna görə də hüquq subyektliyi yoxdur. Üçüncü şəxslərlə hüquqi şəxsin adından və onun mənafeyi üçün əqdlər (müqavilələr) bağlamaq və digər hüquqi hərəkətlər etmək üçün filialın rəhbərinin adına etibarnamə verilir. Nümayəndəlikdə oldugu kimi filialın da əmlak bazası hüquqi şəxs tərəfindən verilən əmlak hesabına yaradılır. Buna görə də filialın fəaliyyəti ilə bağlı olaraq yaranan öhdəliklərə (borclara) görə cavabdeh olmaq hüquqi şəxsə həvalə edilir.

Nümayəndəlik kimi filial da onu yaradan hüquqi şəxsin oldugu yerdən kənarda yerləşir. Nümayəndəlikdən fərqli olaraq filial hüquqi şəxsin yerinə yetirdiyi funksiyanı həyata keçirir. Filial hüquqi şəxsin funksiyalarının hamısını və ya bu funksiyaların yalnız bir hissəsini həyata keçirə bilər. Filialın həyata keçirdiyi funksiyanın həcmi nümayəndəliyə nisbətən daha böyükdür. Filialın fəaliyyət predmeti daha geniş və əhatəlidir.

Beləliklə, filial dedikdə, hüquqi şəxsin olduğu yerdə, kənarda yerləşən elə bir xüsusi (ayrıca) bölməsi başa düşülür ki, bu bölmənin fəaliyyət predmeti hüquqi şəxsin funksiyalarının hamısını (və ya bir hissəsini), o cümlədən nümayəndəlik funksiyasını həyata keçirməkdən ibarətdir.

18. Kommandit ortaqlığı hüquqi şəxslərin təşkilati-hüquqi forması kimi.

Kommandit ortaqlığı MM-in 82.1-ci bəndində anlayışı və mahiyyəti ifadə olunur. Kommandit ortaqlığı tam ortaqlardan və maya qoyandan ibarətdir. Tam ortaqlar ortaqlığın adından sahibkarlıq fəaliyyətini həyata keçirirlər və komplementariyalar adlanır. Tam ortaqlar yalnız fərdi sahibkarlar və ya kommersiya təşkilatları ola bilər və öhdəliklər üzrə qeyri-məhdud məsuliyyət daşıyırlar. Onların cavabdehliyi birgə subsidiar məsuliyyətdir. Tam ortaqlar kommandit ortaqlığında idarəetməni həyata keçirirlər və işləri aparırlar.

Kommandit ortaqlığının ikinci qrup iştirakçısı maya qoyanlardır. Onlar sahibkarlıq fəaliyyətində iştirak etmir və sahibkar hesab olunmurlar. Hər bir fiziki və hüquqi şəxs maya qoyan ola bilər. Onlar ortaqlığa kapital qoyurlar və məqsədləri mənfəət əldə etməkdir. Maya qoyanlar ortaqlığın idarə edilməsində iştirak etmirlər və etibarnaməsiz ortaqlıq adından çıxış edə bilməzlər. Maya qoyanlar kommanditçilər adlanır. Onlar ortaqlığın öhdəlikləri üzrə mülki-hüquqi məsuliyyət daşımırlar və yalnız qoyduqları mayanın məbləği həddində risk edirlər.

Kommandit ortaqlığı tam ortaqların birliyi və kommanditçilərin kapitallarının birliyini

birləşdirir. Firma adı tam göstərilməlidir. Firma adına tam ortaqların adları və "kommandit ortaqlığı" sözləri daxil edilir və ya "və ortaqları" ifadəsi ilə azı bir tam ortağın adı qeyd olunur. Firma adına kommanditçinin adı daxil edilə bilməz, əks halda o, tam ortağa çevrilir.

Kommanditçilərin əsas vəzifəsi ortaqlığa maya qoymaqdır. Qoyulan mayaların miqdarı nizamnamədə göstərilir. Maya qoyanlara iştirakçılıq barədə şəhadətnamə verilir. Kommanditçilər mənfəətdən pay almaq hüququna malikdirlər və payları şərikli kapitaldakı paya uyğun verilir. Onlar öz paylarını digər maya qoyanlara və ya üçüncü şəxslərə verə bilərlər. Tam ortaqlara isə yalnız onların razılığı ilə verə bilərlər. Pay alqı-satqı, dəyişmə və bağışlama yolu ilə özgəninkiləşdirilə bilər.

Kommanditçilər maliyyə ili qurtardıqda ortaqlıqdan çıxmaq və mayasını almaq hüququna malikdir. Kommanditçi yalnız qoyduğu mayanın qaytarılmasını tələb edə bilər. O, ortaqlığın illik hesabatları və balansları ilə tanış olmaq hüququna malikdir. Ortaqlığın adından yalnız etibarnamə ilə çıxış edə bilər. Onların idarəetmədə iştirak hüququ yoxdur və tam ortaqların hərəkətlərinə müdaxilə edə bilməzlər.

Kommandit ortaqlığı ümumi əsaslara, tam ortaqlıqlara aid xüsusi əsaslara və yalnız ona aid əsas — kommanditçilərin hamısının çıxmasına görə ləğv edilə bilər. Kommanditçilərin hamısı çıxdıqda ortaqlıq tam ortaqlığa çevrilə bilər.

Ləğv zamanı əvvəlcə kreditorların tələbləri ödənilir, sonra kommanditçilərin mayaları qaytarılır və qalan əmlak tam ortaqlar arasında paylarına mütənasib bölüşdürülür.

19. Təsərrüfat ortaqlıqlarının və təsərrüfat cəmiyyətlərinin mahiyyətini, oxşar və fərqli cəhətlərini izah edin.

Təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin mahiyyətinə aydınlıq gətirmək üçün onlar arasında həm ümumi və oxşar, həm də fərqli cəhətləri müəyyən etməyə çalışaq.

Oxşar cəhətlər:

1. Onların hər ikisi kommersiya təşkilatıdır. Belə ki, həm təsərrüfat ortaqlıqlarının, həm də təsərrüfat cəmiyyətlərinin fəaliyyətinin əsas məqsədi mənfəət əldə etməkdən və bu mənfəəti iştirakçılar arasında bölüşdürməkdən ibarətdir.
2. Həmin qurumların hər ikisi onların fəaliyyətinin maddi (əmlak) bazasını yaradan və kreditorların mənafeyini təmin edən nizamnamə (şərikli) kapitalına malikdir. Bu nizamnamə (şərikli) kapitalı iştirakçıların payına bölünür.
3. Həmin qurumların iştirakçıları onlara pay (maya) kimi verdikləri əmlak özərində mülkiyyət hüququna malik deyildir. Bu əmlak mülkiyyət hüququ əsasında təsərrüfat ortaqlığının və cəmiyyətinin özünə məxsusdur.
4. Həm təsərrüfat ortaqlıqları, həm də təsərrüfat cəmiyyətləri MM-də nəzərdə tutulan hallar istisna olmaqla digər hər hansı təsərrüfat ortaqlığının və cəmiyyətinin təsisçiləri olmaq hüququna malikdir.
5. Həm təsərrüfat ortaqlıqları, həm də təsərrüfat cəmiyyətləri dövlət orqanları və yerli özünüidarə orqanları tərəfindən təsis edilə bilməz.
6. Həm təsərrüfat cəmiyyətləri, həm də təsərrüfat ortaqlıqları, bir qayda olaraq, qabaqcadan icazə alınmadan normativ üsulla yaradılır.

Fərqli cəhətlər:

1. Təsərrüfat ortaqlıqları təsərrüfatçı şəxslərin — iş adamlarının, biznesmenlərin birliyidir. Burada təsisçilər həm əmlak payları ilə, həm də şəxsi əməyi ilə iştirak edirlər.

Təsərrüfat cəmiyyətləri isə kapitalların birliyidir və təsisçilər yalnız əmlak payları ilə iştirak edirlər.

2. Təsərrüfat ortaqlığının fəaliyyətində təsisçinin şəxsi əməyi tələb olunur və tam ortaq yalnız bir ortaqlığın iştirakçısı ola bilər. Tam ortaq ortaqlığın öhdəliklərinə görə bütün şəxsi

əmlakı ilə cavabdehdir.

Təsərrüfat cəmiyyətində iştirakçı qeyri-məhdud məsuliyyət daşımır və bir neçə cəmiyyətdə iştirak edə bilər.

3. Təsərrüfat cəmiyyəti iştirakçısının riski yalnız qoyduğu əmlak payı ilə məhduddur.

Təsərrüfat ortaqlığı iştirakçısının riski qeyri-məhduddur və o, bütün şəxsi əmlakı ilə məsuliyyət daşıyır.

4. Təsərrüfat ortaqlığı bir şəxs tərəfindən yaradıla bilməz.

Təsərrüfat cəmiyyətini isə bir şəxs yarada bilər.

5. Təsərrüfat ortaqlığında orqanlar sistemi yoxdur — işləri iştirakçılar aparır.

Təsərrüfat cəmiyyətində orqanlar sistemi yaradılır (idarə heyəti və s.).

6. İştirakçı ortaqlığın tərkibindən çıxarsa və bir iştirakçı qalarsa, ortaqlıq ləğv edilir.

Cəmiyyət isə iştirakçıların dəyişməsindən asılı olmayaraq mövcud olur.

7. Təsərrüfat cəmiyyətinin yaradılmasının şərti nizamnamə kapitalının tam ödənilməsidir.

Təsərrüfat ortaqlığının kapitallaşdırılması xüsusi tənzimlənmir.

8. Təsərrüfat cəmiyyətlərində nizamnamə fondu nizamnamə kapitalı, təsərrüfat ortaqlıqlarında isə şərikli kapital anlayışı ilə əhatə olunur.

20. Tam ortaqlığın mahiyyətini və yaradılma məqsədləri haqqında bəhs edin və ləğvi qaydalarını izah edin.

Tam ortaqlıq təsərrüfat ortaqlıqlarının elə bir formasıdır (növü) ki, onun iştirakçıları nizamnaməyə müvafiq surətdə ortaqlıq adından sahibkarlıq fəaliyyəti ilə məşğul olur və ortaqlığın öhdəlikləri üzrə onlara məxsus olan əmlakla məsuliyyət daşıyırlar. Tam ortaqlıq nizamnamə əsasında fəaliyyət göstərir.

Tam ortaqlığın iştirakçıları tam ortaqlar adlanır. Tam ortaqlar ən azı iki şəxsdən ibarət olmalıdır. Tam ortaq rolunda yalnız fərdi sahibkarlar və kommersiya təşkilatları çıxış edə bilər. Deməli, sahibkar statusu olmayan şəxslər tam ortaqlığın iştirakçısı ola bilməzlər.

Tam ortaqlıq sahibkarlıq fəaliyyəti üçün yaradılır və kommersiya təşkilatıdır. Sahibkarlıq fəaliyyəti tam ortaqlığın adından onun iştirakçıları tərəfindən həyata keçirilir.

Tam ortaqlıq iki əsas qrup üzrə ləğv edilir: ümumi əsaslar və xüsusi əsaslar.

Ümumi əsaslara aiddir: müddətin qurtarması, məqsədə nail olunması, dövlət qeydiyyatının məhkəmə tərəfindən etibarsız sayılması, lisenziyasız fəaliyyət və digər hallar (MM 59).

Xüsusi əsaslardan biri tam ortaqlıq iştirakçılarının tərkibinin dəyişməsidir (MM 76). Əgər nizamnamədə və ya qalan iştirakçıların sazişində ortaqlığın fəaliyyətini davam etdirməsi nəzərdə tutulmayıbsa, bu hal tam ortaqlığın ləğvinə səbəb olur.

İştirakçının ölümü, itkin düşməsi, müflis elan edilməsi, fəaliyyət qabiliyyətsizliyi kimi hallar da iştirakçıların tərkibini dəyişir.

Tam ortaqlıq iştirakçısının şəxsi borcları üzrə kreditor onun payına yönələ bilər və bu zaman həmin şəxsin ortaqlıqda iştirakına xitam verilir. O, iki il müddətində tam ortaqlığın öhdəlikləri üzrə məsuliyyət daşıyır.

Tam ortaqlıqda tək iştirakçı qaldıqda (MM 81.2) ortaqlıq ləğv edilir, lakin yeganə iştirakçı isterse ortaqlığı təsərrüfat cəmiyyətinə çevirə bilər.

1. Səhmin növləri, səhmin buraxılması və sahiblərinə verilən hüquqlar
haqqında bəhs edin.

Səhm - onun sahibinin (səhmdarın) səhmdar cəmiyyətin mənfəətinin bir hissəsini dividend şəklində almaq, səhmdar cəmiyyətin idarə edilməsində iştirak etmək və o, ləğv

edildikdən sonra qalan əmlakın bir hissəsini əldə etmək hüququnu təsbit edən emissiya qiymətli kağızıdır.
1.Səhmin növləri

Səhmin iki növü vardır:

- Adi səhm
- İmtiyazlı səhm

Adi səhm – sahibinin səhmdar cəmiyyətinin gəlirinin bir hissəsini dividend şəklində almaq, cəmiyyətin idarə edilməsində iştirak etmək və ləğv edildiyi halda yerdə qalan əmlakın bir hissəsini əldə etmək hüquqlarını təsbit edir.

İmtiyazlı səhm – sahibinin malik olduğu səhmin nominalından müəyyən faizlə ifadə olunmuş ölçüdə dividend almaq hüququnu təsbit edir və bu dividendin alınmasında digər adi səhm sahiblərinə nisbətən üstünlük hüququnu təmin edir.

2. Səhmin buraxılması

Səhmlər aşağıdakı hallarda buraxılır:

- səhmdar cəmiyyətlə yaradıldıqda
- müəssisənin və ya təşkilatın səhmdar cəmiyyətinə çevrilməsi zamanı
- nizamnamə kapitalının artırılması zamanı

Səhmdar cəmiyyətlərinin səhmləri onlara açıq abunə yazılışı yolu ilə, yaxud bütün səhmlərin təsisçilər arasında bölüşdürülməsi qaydasında yayılır.

Səhmdar cəmiyyətinin səhmləri onun nizamnamə fondu məbləğində buraxılır.

Səhmdar cəmiyyətinin əlavə səhmlər buraxması o halda mümkündür ki, əvvəl buraxılmış bütün səhmlər nominal dəyərdən aşağı olmamaq şərti ilə tamamilə satılmış olsun.

Səhmlərin ilkin satışında onların nominal qiymətdən aşağı qiymətlə satışına yol verilmir.

Səhmdar cəmiyyətinin təsərrüfat fəaliyyəti ilə bağlı zərəri ödəmək üçün səhmlər buraxmaq qadağandır.

3. Səhm sahiblərinə verilən hüquqlar

Səhm sahiblərinə verilən hüquqlar:

- Səhm sahibinin səhmdar cəmiyyətinin mənfəətinin bir hissəsini dividend şəklində götürmək hüququ vardır.
- Emitent ləğv edilərkən kreditorların və imtiyazlı səhm sahiblərinin tələbləri ödəndikdən sonra emitentin əmlakının qalan hissəsinə səhm sahibinin hüququ vardır.
- Səhm sahibi səhmdarların ümumi yığıncağında səs hüququna malikdir və idarəetmə orqanlarının və təftiş komissiyasının seçilməsində, habelə Qiymətli Kağızlar haqqında qanunda nəzərdə tutulmuş hallardan başqa, nəzarətin həyata keçirilməsində və iş siyasətinin təsdiq olunmasında qoyduğu paya mütənasib şəkildə iştirak edir.
- Səhm bölünməzdir. Eyni bir səhm bir neçə şəxsə məxsus olduqda onların hamısı səhmin bir sahibi sayılır və öz hüquqlarını özlərindən biri vasitəsilə həyata keçirə bilərlər.

2. Qanunverciliyə əsasən, kommersiya təşkilatının törəmə cəmiyyət statusu alması üçün hansı əsaslar mövcud olmalıdır?

Başqa iştirakçı tərəfindən nəzarət olunan və özünün qəbul etdiyi qərarları müstəqil surətdə müəyyənləşdirmək imkanına malik olmayan kommersiya təşkilatına törəmə təsərrüfat cəmiyyəti deyilir. Törəmə təsərrüfat cəmiyyətinin fəaliyyəti üzərində nəzarət edən və həmin cəmiyyətin qəbul etdiyi qərarları müəyyənləşdirmək imkanına malik olan kommersiya təşkilatı isə əsas iştirakçı adlanır. Əgər törəmə təsərrüfat cəmiyyəti nəzarət olunan təşkilatdırsa, əsas iştirakçı nəzarət edən təşkilatdır. Odur ki, nəzarət edən təşkilat nəzarət olunan cəmiyyətə onun işlərinin idarə olunması barədə məcburi göstərişlər vermək hüququna malikdir.

Deməli, kommersiya təşkilatının törəmə cəmiyyət statusu alması üçün mülki qanunvericiliyin nəzərdə tutduğu iki əsasdan birinin mövcud olması vacibdir:

* birincisi, əsas kommersiya təşkilatının (əsas iştirakçının) digər təsərrüfat cəmiyyətinin nizamnamə kapitalında üstün iştirakı. Elə bir iştirak ki, bu, həmin cəmiyyətin işlərinin idarə olunmasında ona həlledici səs verir.

* ikincisi, əsas kommersiya təşkilatı (əsas iştirakçı) ilə həmin

təsərrüfat cəmiyyəti arasında müqavilə bağlanır. Elə bir müqavilə ki, bu müqavilə əsas iştirakçıya cəmiyyətin işlərini idarə etmək (məsələn, cəmiyyətin icra orqanının səlahiyyətlerini icra etmək) hüququ verir.

Törəmə təsərrüfat cəmiyyətinin leqal anlayışı, onun hüquqi vəziyyəti, əsas iştirakçı ilə qarşılıqlı münasibətləri və digər məsələlər mülki qanunvericiliklə ətraflı surətdə tənzimlənir (MM-in 67-ci maddəsi). Törəmə təsərrüfat cəmiyyəti başqa kommersiya (sahibkarlıq) təşkilatının — əsas iştirakçının təsiri və nəzarəti altına düşür. Belə halda azlıqda qalan və üstün iştiraka malik olmayan səhmdarların (digər iştirakçıların), habelə kreditorların mənafelərini müdafiə etmək zərurətə çevrilir. Bu məqsədlə mülki qanunvericilik törəmə təsərrüfat cəmiyyəti hüquqi konstruksiyasını ayrıca olaraq nəzərdə tutur və onu xüsusi qaydada tənzimləyir.

Əsas iştirakçı (nəzarət edən) rolunda həm təsərrüfat ortaqlıqları, həm də təsərrüfat cəmiyyətləri çıxış edə bilər. Nəzarət olunan (törəmə) subyekt qismində isə yalnız təsərrüfat cəmiyyəti (səhmdar cəmiyyəti və ya məhdud məsuliyyətli cəmiyyət) çıxış edə bilər və törəmə cəmiyyət əsas iştirakçının borcları üçün cavabdeh deyildir (MM-in 67.2-ci bəndi).

3. Əlavə məsuliyyətli cəmiyyətin mahiyyəti və təsis sənədləri haqqında bəhs edin.

Əlavə məsuliyyətli cəmiyyət hüquqi şəxslərin müstəqil təşkilati-hüquqi forması və təsərrüfat cəmiyyətinin bir növüdür. MM-nin 97-ci maddəsinə əsasən, bu cəmiyyət bir və ya bir neçə şəxs tərəfindən yaradılır və nizamnamə kapitalı paylara bölünür. Cəmiyyətin iştirakçıları onun öhdəlikləri üzrə yalnız qoyduqları payın dəyərindən əlavə, nizamnamədə hamı üçün eyni müəyyən edilmiş misli miqdarında şəxsi əmlakları ilə birgə subsidiar məsuliyyət daşıyırlar.

Əlavə məsuliyyətli cəmiyyət hüquqi təbiətinə görə ikili xarakterə malikdir:
* tam ortaqlığa oxşar olaraq – iştirakçılar subsidiar məsuliyyət daşıyır;
* məhdud məsuliyyətli cəmiyyətə oxşar olaraq – paylara bölünmüş nizamnamə kapitalına malikdir.

Tam ortaqlıqdan fərqi ondan ibarətdir ki, tam ortaqlığın iştirakçıları bütün şəxsi əmlakları ilə, yəni qeyri-məhdud məsuliyyət daşıyır, əlavə məsuliyyətli cəmiyyətin iştirakçıları isə əvvəlcədən müəyyən olunmuş məhdud bir hissə ilə cavabdehdir.

Məhdud məsuliyyətli cəmiyyətdən fərqi isə budur ki, MMC iştirakçıları cəmiyyətin borcları üçün ümumiyyətlə cavabdeh deyil, əlavə məsuliyyətli cəmiyyət iştirakçıları isə əlavə məsuliyyət daşıyırlar. Digər məsələlər üzrə onun hüquqi statusu MMCilə eynidir və MMChaqqında qaydalar ona da tətbiq edilir.

İştirakçılardan biri müflis olduqda onun məsuliyyət payı digər iştirakçılar arasında bölüşdürülür. Cəmiyyət kommersiya məqsədi ilə yaradılır, nizamnamə kapitalı paylara bölünür, iştirakçıların sayı 50-yə qədər ola bilər və fiziki, hüquqi, xarici şəxslər iştirak edə bilərlər.

———

Əlavə məsuliyyətli cəmiyyətin təsis sənədləri

Əlavə məsuliyyətli cəmiyyətin təsis sənədləri aşağıdakılardır:

1. Nizamnamə
2. Təsismüqaviləsi (birləşmə memorandumu)

Cəmiyyət yalnız bir şəxs tərəfindən təsis edilirsə, təsis sənədləri nizamnamə və həmin şəxsin təsisçi qərarı olur.

Birləşmə memorandumu aşağıdakı məlumatları əks etdirir:

* təsisçilərin tərkibi;
* nizamnamə kapitalının həcmi və hər iştirakçının payı;
* qoyulan töhfələrin miqdarı, tərkibi və ödənilmə qaydası;
* töhfə qoymaq öhdəliyinin pozulmasına görə məsuliyyət;
* mənfəətin bölüşdürülmə qaydası;
* cəmiyyətin idarəetmə orqanlarının tərkibi;
* iştirakçıların cəmiyyətdən çıxma qaydası.

Nizamnamədə aşağıdakılar göstərilir:

* cəmiyyətin tam və qısaldılmış adı;
* yerləşdiyi yer;
* idarəetmə orqanlarının tərkibi və səlahiyyətləri;

* nizamnamə kapitalının miqdarı;
* iştirakçıların hüquq və vəzifələri;
* iştirakçının cəmiyyəti tərk etmə qaydası;
* payın başqa şəxsə verilməsi qaydası;
* sənədlərin saxlanması və iştirakçılara məlumat verilməsi qaydası.

4. Səhmdar cəmiyyətinin əsas əlamətləri və növləri haqqında bəhs edin.

Səhmdar cəmiyyətinin əsas əlamətləri

Səhmdar cəmiyyəti – nizamnamə kapitalı müəyyən sayda səhmlərə bölünmüş kommersiya təşkilatıdır . Onu digər hüquqi şəxslərdən fərqləndirən əsas hüquqi əlamətlər bunlardır :

1. Nizamnamə kapitalı səhmlərə bölünür

Cəmiyyətin nizamnamə kapitalı bərabər paylara – səhmlərə bölünür və kapital səhm buraxmaqla formalaşır. Bu cəhət onu MMC-dən və digər təşkilatlardan fərqləndirir .

2. Səhmdarlar cəmiyyətin borclarına görə məsuliyyət daşımır

Səhmdarlar cəmiyyətin öhdəliklərinə görə şəxsi əmlakı ilə cavabdeh deyillər . Yəni cəmiyyət borca düşsə belə səhmdardan borcun ödənilməsi tələb edilə bilməz.

3. Səhmdarların riskinin məhdud olması

Səhmdar yalnız cəmiyyətə qoyduğu vəsait (səhmə verdiyi pul) qədər risk daşıyır. Cəmiyyət zərərə düşərsə, səhmdar yalnız səhmə qoyduğu məbləği itirə bilər.

4. Səhmlər qiymətli kağızdır

Səhm – cəmiyyətin nizamnamə kapitalına pay verildiyini təsdiq edən qiymətli kağızdır və sahibinə hüquqlar verir :

- dividend almaq,
- ümumi yığıncaqda səsvermədə iştirak etmək (imtiyazlı səhm sahibləri istisna),
- səhmə mülkiyyət hüququ.

5. Səhmdar cəmiyyəti yalnız özü səhm buraxa bilər

MM-in 98.2-ci maddəsinə əsasən, səhm buraxmaq hüququ yalnız səhmdar cəmiyyətlərinə məxsusdur.

6. Səhmdarın cəmiyyətdən çıxması qaydası fərqlidir

Səhmdar cəmiyyətdən çıxarkən ondan əmlak hissəsi qaytarılmır.
O, yalnız öz səhm(ler)ini başqasına sataraq cəmiyyətdən çıxa bilər. Bu qayda cəmiyyətin əmlakının azalmamasını təmin edir.

7. Firma adında tip mütləq göstərilir

Firma adında "Açıq səhmdar cəmiyyəti" və ya "Qapalı səhmdar cəmiyyəti" mütləq yazılmalıdır.

Səhmdar cəmiyyətinin növləri

Səhmdar cəmiyyətləri iki növə bölünür:

---

1. Açıq tipli səhmdar cəmiyyəti (ASC)

Əlamətləri:
- Səhmlər müstəqil surətdə, yəni digər səhmdarların icazəsi olmadan sərbəst şəkildə satıla bilər.
- İstənilən şəxs səhm alaraq cəmiyyətin səhmdarı ola bilər.
- Emissiya (səhm buraxılışı) açıq abunə yazılışı ilə həyata keçirilir – yəni səhmlər qeyri-məhdud dairəyə təklif olunur.
- İllik hesabat və balans məcburi olaraq dərc olunur (şəffaflıq tələbi).
- Səhmdarların sayı məhdud deyil.
- Nizamnamə kapitalının minimum məbləği 4000 manatdır.

---

2. Qapalı tipli səhmdar cəmiyyəti (QSC)

Əlamətləri :

- Səhmlər yalnız təsisçilər və ya əvvəlcədən müəyyən edilmiş şəxslər arasında bölüşdürülür.
- Səhmi başqa şəxsə satmaq üçün digər səhmdarların əksəriyyətinin razılığı tələb olunur.
- Səhmlərin satılmasında digər səhmdarlar üstünlük hüququna malikdirlər .
- Emissiya yalnız qapalı abunə yazılışı ilə mümkündür.
- Səhmdarların sayı maksimum 50 nəfər ola bilər (Nazirlər Kabineti qərarı).
- Səhmdarların sayı 50-dən çox olarsa, cəmiyyət 1 il ərzində ASC-yə çevrilməlidir .
- Nizamnamə kapitalının minimum həddi 2000 manatdır.
- QSC əsasən yaxın tanış, qohum və ya məhdud sayda şəxslər tərəfindən yaradılır .
- Səhmlər çox vaxt yalnız adlı səhmlər olur.

5. Məhdud məsuliyyətli cəmiyyətin mahiyyəti haqqında bəhs edin. Nizamnamə kapitalının təşkili, artırılması və azaldılmasının həyata keçirilməsi qaydalarını izah edin.

MMC –bir və ya bir neçə fiziki və ya hüquqi şəxs tərəfindən yaradılan, nizamnamə kapitalı paylara bölünmüş, iştirakçıların şəxsi əmlakı ilə deyil, yalnız qoyduqları maya miqdarı qədər risk daşıdıqları təsərrüfat cəmiyyətidir.

Əsas xüsusiyyətlər:

- İştirakçılar cəmiyyətin borclarına görə şəxsi əmlakı ilə cavabdeh olmur.
- Risk yalnız qoyulan maya qədərdir.
- Cəmiyyət də iştirakçılarının şəxsi öhdəliklərinə cavabdeh deyil.
- İştirakçıların sayı 50 nəfəri keçə bilməz.
- MMC yeni yaradılma və ya yenidən təşkiletmə (birləşmə, bölünmə, çevrilmə və s.) ilə yaradıla bilər.
- MMC-nin firma adında mütləq “Məhdud məsuliyyətli cəmiyyət” sözləri olmalıdır.

Nizamnamə kapitalı – Mahiyyəti və təşkili

MMC-nin nizamnamə kapitalı iştirakçıların mayalarından formalaşır və kreditorlar üçün minimum təminat rolunu oynayır.

Kapitalın formalaşdırılması qaydası:

- Kapital dövlət qeydiyyatına qədər tam ödənilir (nizamnamədə başqa müddət göstərilməyibsə).
- Əgər ödəniş müddəti nəzərdə tutulursa – 3 aydan çox olmamalıdır.
- İştirakçı maya qoymaq öhdəliyindən azad edilə bilməz.
- Pul olmayan əmlak (avadanlıq, daşınmaz əmlak və s.) yalnız təsis yığıncağının qiymətləndirmə qərarı ilə dəyəri təsdiqlənə bilər.

Nizamnamə kapitalının artırılması

Nizamnamə kapitalı yalnız tam ödənildikdən sonra artırıla bilər. Artırılma 3 üsulla mümkündür:

1. Cəmiyyətin əmlakı hesabına artırılma
   - Ümumi yığıncağın qərarı ilə edilir.
   - Yalnız ötən ilin təsdiqlənmiş maliyyə hesabatları əsasında mümkündür.
   - Artırılan məbləğ cəmiyyətin:
   - xalis aktivləri,
   - nizamnamə kapitalı
   - və ehtiyat fondu arasındakı fərqdən çox ola bilməz.
   - Paylar mövcud paylara mütənasib şəkildə artırılır.

2. İştirakçıların əlavə mayaları hesabına artırılma
   - Ümumi yığıncağın qərarı ilə olur.
   - Hər iştirakçı əlavə maya qoymaq hüququna malikdir.
   - Müddət bitərsə – artırılma baş tutmamış sayılır.
   - Hər iştirakçının payı öz qoyduğu əlavə mayaya uyğun artırılır.

3. Yeni iştirakçıların qəbulu və maya qoyması yolu ilə artırılma
   - Ərizə əsasında həyata keçirilir.
   - Yeni iştirakçının payının nominal dəyəri onun qoyduğu mayadan çox ola bilməz.
   - Artırılma baş tutmasa – qoyulan mayalar geri qaytarılır.

Nizamnamə kapitalının azaldılması

MMC kapitalı yalnız ümumi yığıncağın qərarı ilə azaldıla bilər.

Azaldılmanın əsas qaydaları:

- Bütün iştirakçıların paylarının nominal dəyəri proporsional şəkildə azaldılır.
- Kapitalın azaldılması haqqında qərar qəbul edildikdən sonra:
- cəmiyyət bütün kreditorları yazılı şəkildə məlumatlandırır ;
- kreditorlar 1 ay ərzində öhdəliklərin vaxtından əvvəl yerinə yetirilməsini və ya zərərin ödənilməsini tələb edə bilər.
- Əgər MMC-nin xalis aktivləri :
- nizamnamə kapitalından azdırsa – kapital azaldılmalıdır.
- minimum kapitaldan azdırsa – MMCləğv olunmalıdır.

6. Korporativ idarəetmənin anlayışı və təşkili haqqında bəhs edin.

Korporativ idarəetmə - biznesin təşkilati-hüquqi formasının idarə olunması, təşkilati srukturların optimallaşdırılması, qəbul olunmuş məqsədlərə müvafiq olaraq kompaniyanın şirkəklərarası və şirkətdaxili münasibətlərinin yaradılmasıdır.

Korporativ idarəetmənin əsas xüsusiyyətləri korporasiyanın spesifik idarəetmə obyektində müəyyənləşir:
səhmdarların prioritet maraqları və onların korporasiyanın inkişafındakı rolu üzərində qurulan idarəetmə;
səhmdarların qarşılıqlı təsirini nəzərdə tutan mülkiyyət hüquqlarının reallaşdırılmasını hesaba alan idaretmə;
korporativ mədəniyyəti doğuran idarəetmə.
Deməli, korporativ idarəetmə dedikdə, ümumi ənənələr kompleksi, nizamnamələr, davranışlar prinsipi başa düşülür.
Korporativ idarəetmənin başlıca funksiyası - mülkiyyətçilərin maliyyə resurslarının maraqları və hüquq çərçivəsində korporasiyanın işinin təmin olunmasıdır.
Korporativ idarəetmə - şirkətin rəhbərliyi , müşahidə şurası, səhmdarları və digər maraqlı şəxslər arasında qarşılıqlı münasibətlər kompleksidir. Korporativ idarəetmə sistemi şirkətin idarə edilməsi və ona nəzarət üçün nəzərdə tutulmuş struktur və proseslərdən ibarət olub, əsas məqsədi şirkətlərdə ədaləti, şəffaflığı və qarşılıqlı cavabdehliyi təşviq etməklə davamlı inkişafa nail olmaqdır.

Effektiv korporativ idarəetmə sistemi daha yaxşı nəzarət və strateji planlaşdırma, əməliyyat risklərinin və məhkəmə çəkişmələrinin azalması deməkdir. Bu sistemin tətbiqi şirkətlərdə şəffaflığı təmin etməklə şirkətlərin beynəlxalq nüfuzunu artırır, investisiyaların cəlb olunmasını asanlaşdırır, cəlb olunan kapital üzrə xərcləri azaldır.
Korporativ idarəetmənin təşkili metodlarının təkmilləşdirilməsi şirkətin idarəetmə strukturu daxilində qərarların qəbulu prosesini yaxşılaşdırır, bu isə maliyyə və biznes əməliyyatlarının effektivliyini artırır. Yaxşı təşkil edilmiş korporativ idarəetmə hesabat sisteminin təkmilləşdirilməsinə və nəticədə şirkətin məsul işçiləri tərəfindən aldatma və ya qanuna riayət etməmə halları ilə bağlı risklərin azaldılmasına da kömək edir. Effektiv idarəetmə sistemi tətbiq edilən qanun və müddəaların yerinə yetirilməsinin təminatına kömək edir. Bu, şirkətlərin ölkə daxilində və beynəlxalq aləmdə daha yaxşı reputasiya qazanmalarına imkan verəcək. Korporativ idarəetmə sistemi şirkətin öz investorlarının maraqlarını təmsil və müdafiə etməsi üçün təşkilati modeldir.
Bununla belə, korporativ idarəetmə sadəcə prosedur və qaydalardan ibarət deyil. Bu, idarəetməyə fərqli baxışdır: "öz maraqlarını digərlərinin maraqlarında görmək bacarığıdır".
Son illər dünya iqtisadiyyatında korporativ idarəetmənin əhəmiyyəti davamlı olaraq artır. Xüsusilə, inkişaf etmiş qərb ölkələrində baş vermiş irimiqyaslı böhran şirkətləri bu sahəyə diqqət ayırmağa sövq etmişdir.
Əvvəllər investorlar şirkətlərin rəqabətqabiliyyətliyini, maliyyə vəziyyətini daha çox diqqət mərkəzində saxlayırdılarsa, hazırda korporativ idarəetmə indeksi daha aktual məsələyə çevrilmişdir və ona görə də investisiya cəlb etməyə çalışan şirkətlər ilk öncə korporativ idarəetmə sistemlərini təkmilləşdirməyə çalışmalıdırlar.

7. Korporativ hüquqda fidusiar öhdəliklər anlayışı

FIDUSIAR ÖHDƏLIKLƏR
Azərbaycanda korporativ münasibətlər inkişaf etdikcə "fidusiar öhdəliklər" terminə tez-tez rast gəlinir. Mülki hüquq doktrinasında fidusiar hüquqi münasibətlərin etibar edən və etibarlı şəxslərin arasında formalaşdığı hesab edilir. Bu yanaşma roman-alman hüquq sistemi ölkələrinə xasdır. İngilis-amerikan hüquq sistemində fidusiar öhdəliklər

(münasibətlər) özündə yalnız nümayəndəlik (etibarlılıq) münasibətləri deyil, həmçinin birinin digəri üzərində səlahiyyət (hakimiyyət) münasibətlərini əhatə edir.

"Fidusiya" anlayışı qədim Romada əmələ gəlib və etibar əsasında qurulmuş hərəkəti ifadə edirdi. Sonradan ingilis-amerikan hüquq sisteminə aid ölkələrdə bu bu konsepsiyanın tətbiq dairəsi genişləndi.

Fidusiar öhdəliklər anlayışı hüququn müxtəlif sahələrində tətbiq edilirdi və korporativ hüquqda da fıdusiar öhdəliklər institutu formalaşaraq inkişaf etdi. Fidusiar münasibətlər geniş şəxslər dairəsində formalaşır. Etibarlı öz etibar edəni, agent öz prinsipalı, direktor öz şirkəti ilə münasibətdə fıdusiar hesab olunurlar. ABŞ və İngiltərə korporativ hüquqlarında müəyyən hallarda "nəzarətçi" səhmdarlar şirkətə və minoritar səhmdarlara qarşı fıdusiar vəzifələr daşıyırlar.

Beləliklə, bir şəxsin əmlakı, əmlak hüquqları üzərində və ya onun hüquqlarının icrası üzərində digər şəxsin və ya şəxslərin hakimiyyəti (ixtiyarı, səlahiyyəti) mövcuddursa, həmin şəxslər (ikinci şəxs) fıdusiar hesab edilir. Fidusiar ona verilmiş səlahiyyətlər çərçivəsində öz mülahizəsinə əsasən, lakin digər şəxsin (təmsil olunan) maraqları (mənafeyi) naminə hərəkət edən və digər şəxsin hərəkətlərinə və ya iradəsinin formalaşmasına təsir etmək və idarə etmək imkanına malikdir. Məsələn, şirkətin əmlakı, hüquqları və həmin hüquqların icrası üzrə səlahiyyət şirkətin rəhbərinə (icra orqanı, direktorlar şurası) məxsusdur. Bununla yanaşı, korporativ idarəetmə çərçivəsində fıdusiarların (direktorlar şurası, rəhbərlər) fəaliyyəti üzərində tam nəzarətin mümkün olmaması qanunvericilik tərəfindən həmin şəxslərin (fıdusiarların) məsuliyyətləri ilə balanslaşdırılmalıdır.

ABŞ və İngiltərə korporativ hüquqları, əsasən, şirkətlərin direktorlar şurasının üzvlərinin fıdusiar öhdəliklərinə böyük diqqət ayırır. Lakin eyni prinsip və yanaşma şirkətin idarə heyətinə və təkbaşçı rəhbərinə də tətbiq edilir. İngilis-amerikan hüquq doktrinasına əsasən şirkətin rəhbər şəxsləri xüsusi fıdusiar öhdəliklər daşıyırlar. Şirkət rəhbərlərinin hərəkətləri şirkətin öz hərəkəti hesab edilir və o, (rəhbər) şirkətin əmlakı üzərində tam səlahiyyətə malikdir. Bununla yanaşı, rəhbərlərin tək məqsədi əmlakın tam qorunması və risklərdən çəkinməkdən ibarət deyil, onun məqsədi (fəaliyyətinin mahiyyəti) şirkətin uğurlu biznes fəaliyyətini təmin etməkdir. Biznes isə özündə, sözsüzki, riski ehtiva edir.

İngiltərə korporativ hüququnda da direktorlar fidusiar öhdəlik daşıyırlar. İngiltərə şirkətlər qanununda direktorun üzərinə aşağıdakı öhdəliklər qoyulur:
- öz səlahiyyətləri çərçivəsində hərəkət etmək;
- şirkətin uğurlu olmasını təmin etmək;
- öz qərarlarında tam müstəqil olmaq;
- işində peşəkarlıq, diqqətlilik və ehtiyat nümayiş etmək;
- maraqların toqquşmasının yaranmasının qarşısını almaq və aidiyyəti şəxslərə əqdlər haqqında məlumat vermək;

- öz əlverişli vəziyyətindən sui-istifadə etməsi.

8. İƏİT-in korporativ idarəetmə prinsipləri və biznes hüququnun predmenti kimi kkorporativ münasibətlər haqqında bəhs edin.

İƏİT-in Korporativ İdarəetmə Prinsipləri 1999-cu ildə İƏİT ölkələri nazirləri tərəfindən təsdiq olunub və o vaxtdan etibarən bütün dünyada dövlət orqanlarının, investorların, şirkətlərin və başqa maraqlı tərəflərin qəbul etdiyi beynəlxalq standart hesab edilib. Bir müddət sonra prinsiplər yenidən nəzərdən keçirilərək daha da təkmilləşdirilmiş və son versiya 2004-ci ilə qəbul olunmuşdur.

İƏİT-in Korporativ İdarəetmə Prinsiplərində korporativ idarəetmənin 6 prinsipi göstərilib:

1.Effektiv korporativ idarəetmə strukturu üçün özülün yaradılması

Effektiv korporativ idarəetmə strukturunun yaradılmasını təmin etmək üçün bütün bazar iştirakçılarının öz fərdi müqavilə münasibətlərini qurduqları zaman etibar edə biləcəkləri hüquqi, tənzimləyici və institusional təməlin yaradılması zəruridir. Bu prinsipləri həyata keçirmək istəyən ölkələr öz korporativ idarəetmə strukturlarına, o cümlədən tənzimləyici təcrübələrinə nəzarət etməli, onların bazarın vəhdətinə və iqtisadi fəaliyyətin nəticələrinin yaxşılaşdırılmasına dair etdikləri müsbət təsirin qoruyub saxlanmasını və möhkəmləndirilməsini təmin etməlidir. Korporativ idarəetmə strukturu onun ümumilikdə iqtisadi fəaliyyətə və bazarın bütövlüyünə təsiri və bazar iştirakçıları üçün yaratdığı stimullar və şəffaf və səmərəli bazarların təşviq etdirməsini nəzərə alınmaqla qurulmalıdır. Ölkədəki korporativ idarəetmə təcrübələrinə təsir göstərən hüquqi və tənzimləyici tələblər qanuna uyğun, şəffaf və tətbiq edilə bilən olmalıdır. Ölkənin hakimiyyət orqanları arasında

vəzifələr aydın şəkildə bölünməli və ictimai maraqlara qulluq etməlidir . Nəzarət, tənzimləyici və icraedici orqanlar öz vəzifələrini peşəkar və obyektiv şəkildə yerinə yetirmək üçün səlahiyyətli , düzgün və müvafiq vasitələrə malik olmalıdırlar . Bundan əlavə, onların qərarları vaxtlı, şəffaf və tamamilə aydın olmalıdır.

2.Səhmdarların hüquqları və əsas mülkiyyət funksiyaları

Səhmdar kapitalına sərmayə qoyuluşu edən investorlar müəyyən mülkiyyət hüquqlarına malikdirlər . Məsələn, səhm payı alına, satıla və ya ötürülə bilər. Səhm payı investora şirkətin gəlirinin bir hissəsini əldə etmək hüququnu verir və onun məsuliyyəti qoyulan sərmayənin həcminə görə məhdudlaşır. Bundan əlavə, səhm payı öz sahibinə şirkət haqqında məlumat almaq və əsasən, səhmdarların ümumi yığıncağında iştirak etməklə və orada səs verməklə şirkətin fəaliyyətinə təsir göstərmək hüququnu verir.

Səhmdarların əsas hüquqları aşağıdakıları əhatə etməlidir :

- mülkiyyət hüququnu etibarlı şəkildə qeydiyyatdan keçirmək;
- səhmləri başqasının adına köçürmək və ya ötürmək;
- şirkət haqqında mühüm və müvafiq məlumatı vaxtında və müntəzəm surətdə almaq;
- səhmdarların ümumi yığıncağında iştirak etmək və səs vermək;
- müşahidə şurasının üzvlərini seçmək və kənarlaşdırmaq;
- şirkətin gəlirindən pay əldə etmək.

3.Səhmdarlara eyni yanaşma

Korporativ idarəetmə strukturu səhmdarlara, o cümlədən azlıq təşkil edən və xarici səhmdarlara eyni münasibət bəslənməsini təmin etməlidir . Bütün səhmdarlar hüquqları pozulduğu halda, onları effektiv metodlarla bərpa etmək imkanına malik olmalıdırlar . İnvestorların onlar tərəfindən yerləşdirilmiş kapitalın şirkətin menecmenti, şura üzvləri və ya nəzarət paketinə sahib olan səhmdarları tərəfindən mənimsənilməyəcəyinə və ya israf edilməyəcəyinə inamı kapital bazarlarında mühüm faktordur. Şirkət şurasında, menecmentində təmsil olunan və nəzarət paketinə sahib olan səhmdarların da öz maraqlarına xidmət edən və kiçik səhmdarların zərərinə olan əməliyyatları həyata keçirmək imkanı yarana bilər.

4.Korporativ idarəetmədə maraqlı tərəflərin rolu

Korporativ idarəetmənin əsas aspekti həm səhmdar

kapitalının, həm də kredit formasında xarici kapitalın şirkətlərə axınını təmin etməkdir. Korporativ idarəetmə maraqlı tərəfləri şirkətin özünə aid olan insan və fiziki kapitallara iqtisadi cəhətdən optimal investisiyaların qoyuluşuna cəlb etmək üçün üsulların axtarışını da nəzərdə tutur. Şirkətlərin rəqabətliliyi və ümumi müvəffəqiyyəti investorların, işçilərin, kreditorların və tədarükçülərin verdikləri vəsaitlərin vasitəsilə həyata keçirilən kollektiv işin nəticəsidir.

Şirkətlər anlamalıdır ki, maraqlı tərəflərin köməyi rəqabətli və gəlirli şirkətin yaradılması üçün qiymətli bir vasitədir.

Korporativ idarəetmə strukturu maraqlı tərəflərin qanunla və ya ikitərəfli sazişlərlə müəyyən edilmiş hüquqlarını tanımalı və rifahın, iş yerlərinin yaradılmasını və maliyyə durumu möhkəm olan şirkətlərin davamlı inkişafını təmin etmək üçün şirkətlə maraqlı tərəflərin fəal əməkdaşlığını təşviq etməlidir.

5.Açıqlamavə şəffaflıq

Məlumatın açıqlanmasına dair əsl şəffaflığı təşviq edən ciddi rejim şirkətlərin bazar fəaliyyətinə nəzarətinin əsasını təşkil edir və səhmdarların öz hüquqlarını məlumatlı şəkildə həyata keçirmək imkanları üçün çox mühümdür. Böyük və işlək qiymətli kağız bazarlarının təcrübəsi onu göstərir ki, məlumatın açıqlanması şirkətlərin davranışına təsir göstərmək və investorların hüquqlarını qorumaq üçün güclü bir alətə çevrilə bilər. Məlumatın açıqlanmasına dair ciddi rejim investisiyaları cəlb etməyə və qiymətli kağızlar bazarında etibarını qorunub saxlamağa kömək edə bilər. Əksinə, zəif açıqlama və qeyri- şəffaf təcrübə qeyri-etik davranışa, şirkətə, onun səhmdarlarına və hətta bütün iqtisadiyyata baha başa gələcək bazarın vəhdətinin itirilməsinə gətirib çıxara bilər. Korporativ idarəetmə strukturu şirkətə aid bütün mühüm məlumatların, o cümlədən şirkətin maliyyə durumu, fəaliyyəti, mülkiyyəti və idarəedilməsi haqqında məlumatların vaxtlı və dəqiq açıqlanmasını təmin etməlidir.

6. Direktorlar (müşahidə) şurasının vəzifələri

Korporativ strategiyanı həyata keçirməklə yanaşı, şura menecmentin fəaliyyətinə nəzarətin həyata keçirilməsinə və səhmdarlar tərəfindən müvafiq gəlirlərin alınmasına, həmçinin maraqlar ziddiyyətinin aradan qaldırılmasına və şirkətə qarşı iddiaların tarazlaşdırılmasına görə cavabdehdir. Öz vəzifələrini effektiv şəkildə yerinə yetirmək üçün şuralar

obyektiv və müstəqil qərarlar qəbul etmək imkanına malik olmalıdır. Şura nəinki şirkətə və onun səhmdarlarına hesabat verməli, həmçinin onların maraqlarına uyğun fəaliyyət göstərməlidir. Bundan əlavə, şuralar digər maraqlı tərəflərin, o cümlədən işçilərin, kreditorların, müştərilərin, təchizatçıların və digərilərin maraqlarını nəzərə almalı və onlara qarşı ədalətli olmalıdır.

9. Rəqabət qanunvericiliyi haqqında bəhs edin və inhisarçılığın növlərini göstərin.

Rəqabət qanunvericiliyi haqqında

Rəqabət münasibətlərinin tənzimlənməsi antiinhisar siyasəti əsasında həyata keçirilir.
Antiinhisar siyasəti həm antiinhisar qanunvericiliyinin mövcudluğunu, həm də onun icrasına nəzarəti əhatə edir. Bu qanunvericilik rəqabətin qorunması və dəstəklənməsi üçün hazırlanmış kommersiya-hüquqi normaların kompleksidir.

Antiinhisar qanunvericiliyinin əsas məqsədləri:

- Rəqabət mühitinin qorunması və gücləndirilməsi
- İnhisarlaşma prosesinin qarşısının alınması
- İstehlakçıların hüquqlarının müdafiəsi
- Kiçik və orta sahibkarlığın inkişafına şərait yaratmaq

Azərbaycan Respublikasında rəqabət münasibətlərini tənzimləyən əsas hüquqi baza — Konstitusiyadır. Konstitusiyanın 15-ci maddəsində rəqabət mühitinin qorunması ilə bağlı müddəalar mövcuddur.

Hazırda rəqabət məsələlərinə nəzarəti Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti həyata keçirir. Bu qurumun əsas vəzifələri: rəqabətin inkişafını təmin etmək, haqsız rəqabəti aradan qaldırmaq, istehlakçıların maraqlarını qorumaqdır.

———

İnhisarçılığın mahiyyəti

İnhisarçılıq — təsərrüfat subyektlərinin qanunsuz və üstün mövqedən istifadə etməklə sərbəst rəqabətə mane olması, onu məhdudlaşdırması və ya tam aradan qaldırmasıdır.

Məqsəd yüksək mənfəət əldə etməkdir.

İnhisarçı fəaliyyət iki əsas forma üzrə həyata keçirilir:

1. Rəqiblər arasında razılaşmalar – qiymətin razılaşdırılması, bazarların bölüşdürülməsi və s.
2. Bazar hökmranlığından istifadə – yuxarı/aşağı inhisar qiymətləri tətbiqi, rəqiblərin sıxışdırılması.

Dövlət qurumlarının qeyri-qanuni addımları nəticəsində rəqabətin məhdudlaşdırılmasıdır.
Məsələn:

- Dövlət sifarişlərinin əsasız verilməsi
- Məhsul istehsalı və satışı üzrə məcburi direktiv tapşırıqların verilməsi

---

2. Yerli inhisarçılıq

Rayon və şəhər səviyyəsində icra hakimiyyətinin rəqabəti məhdudlaşdırması.
Məsələn:

- Yerli bazara daxil olmaq üçün süni maneələr
- Yerli büdcə vəsaitləri ilə ayrı-ayrı şirkətlərə üstünlük verilməsi

---

3. Sahə inhisarçılığı

Sahə idarəetmə orqanlarının qanunsuz müdaxiləsi.
Misal:

- Yeni müəssisələrin sahəyə daxil olmasına maneələr
- Maddi ehtiyatların süni mərkəzləşdirilməsi
- Paralel satış/tədarük strukturlarının yaradılmasına maneə

---

4. İstehsal inhisarçılığı

Müəyyən məhsul istehsalının az sayda istehsalçının əlində toplanması.
Bu zaman:

- Xammal bazarı bölünür
- Satış bazarı bölüşdürülür
- Qiymətqoyma razılaşdırılır

——

5. Maliyyə–kredit inhisarçılığı

Bank və kredit təşkilatlarının qanunsuz üstünlük yaratması.
Misal:
- Kredit faizləri üzrə gizli razılaşmalar
- Kredit almaqda əsassızayrı-seçkilik
- Yeni maliyyə təşkilatlarının bazara daxil olmasına maneələr

——

6. Patent–lisenziya inhisarçılığı

Patent və lisenziyaların sui-istifadəsi yolu ilə rəqabətin məhdudlaşdırılması.
Misal:
- Patentdən istifadə etməmək və lisenziya verməkdən əsassızimtina
- Lisenziya alanın texnologiyanı mənimsəməsinin məhdudlaşdırılması

——

7. Təsərrüfat subyektlərinin inhisarçılığı (özəl inhisar)

Bazarda hökmran mövqeyi olan şirkətlərin rəqibləri sıxışdırması.
Misal:
- Süni qıtlıq yaratmaq
- Qiymətləri süni qaldırmaq və ya azaltmaq
- Bazara daxil olmağa əsassızmaneələr yaratmaq

30. İddia müddətinin anlayışı haqqında bəhs edin. İddia müddətinin axını hansı hallarda dayandırıla bilər?

İddia hüququ- pozulmuş və ya mübahisə edilən hüququ

müdafiə etmək üçün məhkəməyə müraciət etmək imkanıdır. Başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququna müddət şamil edilir. İddia müddətinin anlayışı Mülki Məcəllənin 372.2-ci maddəsində göstərilib.Həmin anlayışda qeyd edilir ki, hüququ pozulmuş şəxsin iddiası ilə onun hüquqlarını müdafiə etmək üçün müəyyən olunmuş müddət iddia müddəti sayılır.
İddia müddətinin axımı şəxsin öz hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu gündən başlanır.İcra müddəti müəyyənləşdirilmiş öhdəliklər üzrə iddia müddətinin axımı icra müddəti bitdikdə başlanır.

Mülki Məcəllə ilə iddia müddətləri müəyyənləşdirilib. Ümumi iddia müddəti on il təşkil edir. Müqavilə tələbləri üzrə iddia müddəti üç il, daşınmaz əşyalarla bağlı müqavilə tələbləri üzrə iddia müddəti isə altı ildir. Vaxtaşırı icra edilməli öhdəliklərdən irəli gələn tələblər üzrə iddia müddəti üç ildir.
İddia müddətinin axımı aşağıdakı hallarda dayandırıla bilər:
1)iddianın irəli sürülməsinə fövqəladə və həmin şəraitdə qarşısı alına bilməyən hal (qarşısıalınmaz qüvvə) mane olduqda;
2)iddiaçı və ya cavabdeh hərbi vəziyyətə keçirilmiş silahlı qüvvələrin tərkibində olduqda;
3)müvafiq icra hakimiyyəti orqanı öhdəliklərin icrası üçün möhlət (moratorium) müəyyənləşdirdikdə;
4)Fəaliyyət qabiliyyəti olmayan şəxsin qanuni təmsilçisi olmadıqda;
5)müvafiq münasibəti tənzimləyən qanunun və ya digər normativ hüquqi aktın qüvvəsi dayandırıldıqda.

Bir sıra tələblərə iddia müddəti şamil edilmir:

- Şəxsi qeyri-əmlak hüquqları və digər qeyri-maddi nemətlərin müdafiəsi ilə bağlı tələblər.
- Əmanətçilərin bankdan əmanətin qaytarılması tələbləri.
- Fiziki şəxsin həyatına və ya sağlamlığına vurulan zərərin ödənilməsi barədə tələblər. (Ancaq tələb zərərin yaranmasından 3 ildən sonra verilsə, maksimum əvvəlki 3 il üçün ödənilir.)
- Mülkiyyətçinin öz mülkiyyət hüququnun pozuntularının aradan qaldırılması ilə bağlı tələbləri (hətta sahiblikdən məhrum edilməsə belə).
- Dövlət və ya bələdiyyə orqanlarının mülkiyyətçiyə

məxsus əmlakla bağlı hüquqlarını pozan aktların etibarsız hesab edilməsi tələbləri .

1. Əqdlərin formaları haqqında bəhs edin.

Əqd bağlanarkən iradənin ifadə üsulu əqdin forması adlanır.Əqdlər şifahi və ya yazılı formada bağlanır. Şifahi bağlana bilən əqd o halda bağlanmış sayılır ki, şəxsin əqdi bağlamaq iradəsi onun rəftarından məlum olur.
Mülki Məcəllənin 330-cu maddəsinə əsasən, bu Məcəllə ilə və ya tərəflərin razılaşması ilə yazılı forması müəyyənləşdirilməmiş əqd şifahi bağlana bilər. Əgər tərəflər başqa qayda müəyyən etməyibsə, dərhal icra olunan əqdlər şifahi formada bağlana bilər. Amma qanunla notarial qaydada bağlanmalı olan əqdlər və yazılı formaya riayət edilmədikdə etibarsız sayılan əqdlər şifahi ola bilməz.
Yazılı əqd, məzmunu əks etdirən və tərəflər və ya onların səlahiyyət verdiyi şəxslər tərəfindən imzalanmış sənədlə bağlanır.
Yazılı formada əqdin bağlanmasının aşağıdakı müsbət cəhətləri vardır:
1.Yazılı formada bağlanması şifahiyə nisbətən əqdin məzmununu daha geniş açır;
2.Tərəflərin öz iradələrini dəqiq ifadə etməsinə və müqaviləni dəqiq yerinə yetirməsinə imkan verir;
3.Əqddən irəli gələn öhdəliklərin tərəflərdən birinin əməl etməməsi hallarını aradan qaldırmaq üçün məhkəmənin işini yüngülləşdirir .

Yazılı əqdlər də iki cür olur: sadə əqdlər və notarial qaydasında təsdiq edilməli olan əqdlər.
Sadə yazılı formada bağlanan əqdlərdə müqavilə üçün lazım olan bütün rekvizitlər – tərəflərin adları, əqdin məzmunu, iştirakçıların imzaları göstərilməlidir . Bu cür əqdlərin etibarlı olması üçün əqddə iştirak edən şəxslərin imzası olmalıdır.
Əgər fiziki şəxs bədən qüsuruna, xəstəliyinə və ya savadsızlığına görə əqdi özü imzalaya bilmirsə, əqdi onun xahişi ilə başqa fiziki şəxs imzalaya bilər.
Sadə yazılı əqdlərə nümunə:
Məktub və ya teleqramlarla mübadilə, sifarişin qəbul olunmasının təsdiq edilməsi,və s.
Yazılı forma tələb olunan əqdlərdə forma pozularsa, mübahisə zamanı şahid ifadələri keçərsiz sayılır, amma başqa sübutlar (yazılı sənədlər) qəbul edilir . Qanunvericiliklə

müəyyən edilmiş hallarda əqdin sadə yazılı formasına riayət edilməməsi onun etibarsızlığına səbəb olur.

Notarial formanın sadə yazılı formadan fərqi ondan ibarətdir ki, sadə yazılı əqd yalnız tərəflərin imzası ilə olur. Notarial əqd isə əlavə olaraq notarius tərəfindən təsdiqlənir və notarius sənəddə xüsusi qeyd yazaraq əqdi rəsmiləşdirir. Əqdin notarial formasına riayət edilməməsi onun etibarsızlığına səbəb olur. Bu cür əqd əhəmiyyətsiz sayılır.

32. Əqdlərin anlayışı və növləri haqqında bəhs edin.

Əqd mülki hüququn əsas anlayışlarından biridir.
Mülki hüquqda əqd dedikdə, mülki hüquq münasibətlərinin əmələ gəlməsinə səbəb olan əsas başa düşülür.
Əqdlər insanların yaşamasını və mövcudluğunu təmin edən başlıca vasitədir. Dünyada hər gün fiziki və hüquqi şəxslərin iştirakı
ilə milyonlarla əqd (alqı-satqı, kirayə, icarə, bağışlama, daşıma və s.) bağlanılır.
Əqdlər iradəvi hərəkətdir. Şəxslərin iradəsi ilə bağlı olmayan hərəkət əqd sayılmır.
Əqdlər xüsusi olaraq müəyyən hüquqi nəticə əldə olunmasına yönələn hərəkətdir. Hüquqi nəticə dedikdə, mülki hüquq münasibətlərinin yaranması, dəyişməsi və ya xitam olunması başa düşülür.
Əqddə iştirak edən tərəflərin sayına görə əqdin üç növü fərqləndirilir:
* birtərəfli əqdlər;
* ikitərəfli əqdlər;
* çoxtərəfli əqdlər.

Birtərəfli əqdlər odur ki, onların bağlanması üçün yalnız bir tərəfin iradə ifadəsi kifayətdir. Məsələn, vəsiyyət etmək və ya etibarnamə vermək.

İkitərəfli əqdlər odur ki, bu əqdlərin bağlanması üçün iki tərəfin iradə ifadəsi tələb olunur. Məsələn, alqı-satqı, kirayə, icarə, daşıma, kredit və s.

Çoxtərəfli əqdlər odur ki, bu əqdlərin bağlanması üçün ikidən çox tərəfin iradə ifadəsinin olması tələb edilir. Bu növ əqdlərin bağlanmasında ikidən çox tərəf iştirak edir. Məsələn, hüquqi şəxsin yaradılması üçün üç şəxs təsis müqaviləsi bağlayırlar.
Mülki hüquq elmində və qanunvericilikdə ikitərəfli və ya çoxtərəfli əqdləri müqavilələr adlandırırlar.

Əqdlər əvəzli olmaq əlamətinə görə iki yerə bölünür:
* əvəzli əqdlərə; • əvəzsiz əqdlərə.
Əvəzli əqdlərdə müvafiq tərəf əvəz almaqla, əvəzsiz əqdlərdə isə əvəz almadan öz vəzifəsini icra edir. Alqı-satqı, kirayə, daşıma və digər müqavilələr əvəzli əqdlərə, bağışlama və əvəzsiz istifadə müqavilələri isə əvəzsiz əqdlərə aiddir.

Əqdlər müddətli və şərti əqdlərə bölünürlər:
Əksər hallarda əqdlərdə müddət göstərilir. Belə hallarda əqdin hüquqi nəticələri müəyyən vaxtın kəsilməsi ilə bağlı olur. Əqddə müddət üç məna daşıyır. Başlanğıc müddət əqdin tərəflərinin hüquq və vəzifələrinin yarandığı anı, icra müddəti əqdin yerinə yetirilməsi vaxtını, sonuncu müddət isə əqdin xitam olunduğunu göstərir.
Əqddə müddət müəyyən və qeyri-müəyyən ola bilər. Əgər vaxt dəqiq
göstərilməyibsə, onda vəzifəli şəxs (kreditor) istənilən vaxt əqdin icrasını tələb edə bilər.

Əgər tərəflər hüquq və vəzifələrin əmələ gəlməsini baş verib-verməyəcəyi məlum olmayan hallardan asılı etmişlərsə, əqd şərtlə
bağlanmış sayılır. pozitiv şərt, neqativ şərt, təxirəsalıcı şərt, ləğvedici şərt.
Pozitiv şərt o deməkdir ki, əqd hansısa hadisənin müəyyən müddətdə baş verəcəyi şərti ilə bağlanmışdır.
Neqativ şərt o deməkdir ki, əqd hansısa hadisənin müəyyən müddətdə baş verməyəcəyi şərti ilə bağlanmışdır.
Təxirəsalıcı şərt o deməkdir ki, müqavilənin qüvvəyə minməsi gələcəkdə baş verəcək qeyri-müəyyən bir hadisədən asılıdır.
O əqd ləğvedici şərtlə bağlanmış sayılır ki, həmin şərtin baş verməsi əqdin xitamına səbəb olur.

Real və konsensual əqdlər
Konsensual əqdlər odur ki, bu cür əqdlərin baglanmış hesab edilməsi üçün tərəflərin razılaşması kifayətdir.
Real əqdlər odur ki, tərəflərin razılığından əlavə, həm də əşya, pul verilsin (dəmiryolu ilə yükdaşıma)

Kauzal və mücərrəd əqdlər
Həqiqiliyi (etibarlılığı) əqdin əsasından asılı olan əqdlərə kauzal əqdlər deyilir.
Kauzal əqdin əsas cəhəti onun hər hansı bir hüquqi məqsəd güdməsindədir. Məsələn,

əmlak kirayə müqaviləsinin məqsədi əşyanı istifadəyə qoymaq, borc müqaviləsinin məqsədi isə pulu və ya əşyanı verməkdir.
Həqiqiliyi əqdin əsasından asılı olmayan əqdlərə mücərrəd əqdlər deyilir. Mücərrəd əqd öz məqsədindən ayrılmış olur. Bu əqdlərə
vekseli misal göstərmək olar.

33. Xüsusi əhəmiyyətli əqdlər və əhməiyyətli şəxslərlə əqdlərin bağlanması qaydalarını izah edin.
Şirkətlər tərəfindən bağlanan bəzi əqdlər yalnız mülki qanunvericiliklə deyil, həm də korporativ qanunvericiliyin xüsusi normaları ilə tənzimlənir. Bu, həmin əqdlərin şirkətin əmlak vəziyyətinə ciddi təsir etməsi ilə bağlıdır. ASC-lərdə dəyəri şirkətin xalis aktivlərinin 25 faizini, MMC-lərdə isə 50 faizini aşan əmlakın əldə edilməsi və ya özgəninkiləşdirilməsi ilə bağlı əqdlər xüsusi əhəmiyyətli əqd hesab olunur. Bir neçə əlaqəli əqd də eyni iqtisadi məqsəd güdürsə, birlikdə xüsusi əhəmiyyətli əqd kimi qiymətləndirilə bilər. Şirkətin adi biznes fəaliyyəti çərçivəsində bağlanan gündəlik əqdlər xüsusi əhəmiyyətli əqd sayılmır.

Xüsusi əhəmiyyətli əqdlərin təsdiqi ASC-lərdə direktorlar şurası və ya səhmdarların ümumi yığıncağı, MMC-lərdə isə iştirakçıların ümumi yığıncağı tərəfindən həyata keçirilir. MMC-də ümumi yığıncağın yetərsayı ilk çağırışda payların 50 faizindən çoxu, yenidən çağırışda 50 faizi, təkrar çağırışda isə 25 faizi olduqda təmin olunur. Əqd ümumilikdə bağlanmazdan əvvəl təsdiqlənməlidir və əks halda məhkəmədə etibarsız sayıla bilər, lakin sonradan təsdiq verilərsə, etibarsızlıq tələbi qüvvədə olmur.

Aidiyyəti şəxslərlə əqdlər şirkətdə şəxsi marağı və real təsir imkanları olan şəxslərlə bağlanan əqdlərdir. Bu kateqoriyaya direktorlar şurası və icra orqanı üzvləri, onların ailə üzvləri, filial rəhbərləri, 10 faiz və daha çox paya malik səhmdarlar, 20 faiz paya malik hüquqi şəxslər və bu şəxslərlə bağlı digər qurumlar daxildir. Şəxsin aidiyyəti əqdin bağlandığı anda mövcud olmalıdır, əqd bağlandıqdan sonra yaranan aidiyyəti nəzərə alınmır.

Aidiyyəti şəxslərlə əqdlərin tənzimlənməsindən istisna olunan hallar mövcuddur: banklar və sığorta şirkətləri, şirkətin 100 faiz payına sahib olan şəxslərlə bağlanan əqdlər, həmçinin

bir il ərzində ümumi məbləği 6000 manatdan çox olmayan əqdlər üçün təsdiq tələb edilmir. 6000 manatlıq həddkiçik məbləğli əqdlərin tənzimlənmədən çıxarılması üçün nəzərdə tutulmuşdur və şirkət əlavə olaraq nizamnaməsində fərqli həddmüəyyən edə bilər.
Aidiyyəti şəxslərlə əqdlər onların bağlanmasından əvvəl şirkətin direktorlar şurası və ya səhmdarların ümumi yığıncağı tərəfindən təsdiq edilməlidir. Bu təsdiq tələb olunur ki, aidiyyəti şəxsin şəxsi marağı şirkətin maraqlarına zidd qərarlar qəbul etməsinə səbəb olmasın. Lakin qanunvericilikdə aidiyyəti şəxslərlə bağlanan əqdlərin sonradan təsdiqlənməsi məsələsi birbaşa tənzimlənməyib. Buna baxmayaraq, idarəetmə orqanı və ya səlahiyyətli şəxs tərəfindən sonradan bəyənilən belə əqdlər etibarlı hesab olunur. Burada "bəyənilmə" termini əqdin artıq bağlandıqdan sonra təsdiqlənməsi kimi başa düşülür.

Aidiyyəti şəxslərlə əqdlər bağlanmazdan əvvəl təsdiq edilməlidir və təsdiq haqqında qərarda aidiyyəti şəxsin kimliyi, faydalanan şəxslər, əqdin predmeti, qiyməti və digər mühüm şərtlər göstərilməlidir. Əgər əqdin dəyəri şirkətin aktivlərinin 5 faizindən çox deyilsə, təsdiq qərarı marağı olmayan direktorlar şurasının sadə səs çoxluğu ilə qəbul olunur. Əqdin dəyəri aktivlərin 5 faizindən artıqdırsa və ya əqd təkbaşçı icra orqanı ilə əlaqəlidirsə, təsdiq qərarı səhmdarların ümumi yığıncağı tərəfindən verilməlidir. Bu halda da qərar əqddə marağı olmayan səhmdarların sadə səs çoxluğu ilə qəbul edilməlidir. Vacib məqam budur ki, səs çoxluğu yığıncaqda iştirak edənlərin deyil, ümumilikdə aidiyyəti olmayan səhmdarların səsinə əsasən hesablanır.

Aidiyyəti şəxslərlə əqdlərin bağlanması qaydaları pozularsa, belə əqd şirkətin və ya səhmdarın iddiası ilə etibarsız hesab edilə bilər. Bundan əlavə, aidiyyəti şəxs şirkətə vurduğu ziyana görə məsuliyyət daşıyır. Əqdin etibarsız hesab edilməsi tələbi şirkət tərəfindən, direktorlar şurasının üzvü və ya səhmdarlar tərəfindən qaldırıla bilər. Bu iddia şəxs əqdin etibarsızlığına səbəb olan hal barədə bildiyi və ya bilməli olduğu gündən üç il müddətində irəli sürülməlidir.

34. Əqdlərin etibarsızlıgı. Əqlərin etibarsız sayılması hansı nəticələrə səbəb olur?(20bal)

Subyekt tərkibinə görə bağlanan əqdlərin etibarsızlığı onunla

şərtlənir ki, əqd onu bağlayan şəxslərin hüquq və fəaliyyət qabiliyyətinə uyğun gəlmir. Belə əqdlərin etibarsızhğı çox zaman onların fəaliyyət qabiliyyəti olmayan və ya fəaliyyət qabiliyyəti
məhdudlaşdırılmış şəxslər tərəfindən bağlanılması ilə izah olunur. Mülki Məcəllənin 342.1-ci maddəsinə əsasən psixi pozuntu
nəticəsində fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin bağladığı əqd etibarsızdır. Belə əqdin tərəflərindən hər biri
aldıqlarının hamısını digər tərəfə eynilə qaytarmalı, alınanları eynilə qaytarmaq mümkün olmadıqda isə onun dəyərini pulla
ödəməlidir. Bundan başqa, əgər fəaliyyət qabiliyyətli tərəf digər tərəfin fəaliyyət qabiliyyəti olmadığını bilirdisə və ya bilməli idisə,
ona dəymiş real zərərin əvəzini də ödəməlidir. Spirtli içkilərdən və ya narkotik vasitələrdən sui-istifadə etməsi, habelə qumara qurşanması nəticəsində fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılmış fiziki şəxsin öz himayəçisindən razılıq almadan əmlaka dair sərəncam verilməsi barədə
bağladığı əqd himayəçinin iddiası ilə məhkəmə tərəfindən etibarsız sayıla bilər. Belə qayda yetkinlik yaşına çatmayanlar tərəfindən
bağlanmış əqdlərə də şamil edilir. Bu şəxslər yalnız qanunvericiliklə nəzərdə tutulmuş qaydada xırda məişət əqdlərini bağlaya
bilərlər.
Hüquqi şəxslərin bağladığı əqdlər aşağıdakı əsaslara görə etibarsız hesab olunur:
1) hüquqi şəxsin hüquq qabiliyyətindən kənara çıxmaqla bağladığı əqdlər; 2) hüquqi şəxsin orqanının öz səlahiyyətlərini
aşmaqla bağladığı əqdlər.
Hüquqi şəxsin öz nizamnaməsində müəyyənləşdirilmiş fəaliyyət məqsədlərinə zidd olaraq bağladığı əqd və ya müvafiq
fəaliyyətlə məşğuliyyət üçün xüsusi icazəsi (lisenziyası) olmayan hüquqi şəxsin bağladığı əqd, əgər əqddə iştirak edən digər tərəfin onun qanunsuz olduğunu bildiyi və ya
bilməli olduğu sübuta yetirilərsə, həmin hüquqi şəxsin, onun təsisçisinin və ya hüquqi şəxsin fəaliyyətinə nəzarət edən

orqanın
iddiası ilə məhkəmə tərəfindən etibarsız sayıla bilər. (Mülki Məcəllənin 349-cu maddəsi).
Məzmununa görə əqdlərin etibarsızlığı onun şərtlərinin qanunun tələblərinə uyğun gəlməməsi ilə müəyyən olunur. Burada
«qanun» dedikdə, respublikanın qanun və qanun qüvvəli aktları, xüsusilə mülki qanunvericiliyi nəzərdə tutulur. Belə etibarsız əqdlər
obyektiv və subyektiv əlamətlərlə xarakterizə olunur. Əqdin hüquqazidd (qanunazidd) xarakteri onun obyektiv əlamətidir. Subyektiv
əlamət isə - tərəflərin əqdin hüquqazidd (qanunazidd) olduğunu başa düşdükləri halda, onu bağlamaq və icra etmək niyyətləri olması
ilə əlaqədardır.
Formasına görə bağlanan əqdlərin etibarsızlığı onunla şərtlənir ki, qanunla müəyyən olunmuş formaya riayət edilmir. Formanı
pozmaqla bağlanmış əqdlər bilavasitə qanunda göstərilmiş hallarda etibarsız sayılır.

35. Etibarnamənin anlayışı növləri və forması haqqında bəhs edin. Etibarnaməyə xitam verilməsi asaslarını izah edin.

Etibarnamə elə bir yazılı səlahiyyətdir (vəkalət) ki, bu səlahiyyət təmsil olunan adından üçüncü şəxslər qarşısında təmsil olunmaq üçün nümayəndəyə verilir
Nümayəndəyə verilən səlahiyyətin həcminə və məzmununa görə etibarnamənin üç növü fərqləndirilir :
* ümumi etibarnamə:
* xüsusi etibarnamə:
* birdəfəlik etibarnamə.
Ümumi etibarnamə odur ki. o, nümayəndəyə əhatə dairəsi geniş və müxtəlif olan əqdlərin bağlanmasına və
digər hüquqi hərəkətlərin yerinə yetirilməsinə səlahiyyət verir. Ona baş etibarnamə də deyilir. Bu cür etibarnamə, adətən, təmsil olunanın əmlakının idarə olunması və ona sərəncam verilməsi üçün verilir. Uzun müddət xaricə gedən şəxslər məhz baş etibarnamə tərtib edirlər.
Nümayəndə istənilən üçüncü şəxs qarşısında nümayəndəlik funksiyasını həyata keçirsin, mümkün olan bütün əqdləri bağlasın və digər hüquqi hərəkətləri yerinə yetirsin.
Onun ən geniş yayılmış növü hüquqi şəxs tərəfindən onun

filialının müdirinin adına verilən etibarnamə hesab edilir.

Xüsusi etibarnamə odur ki, o, nümayəndəyə müəyyən sahədə və ya eyni növlü bir neçə hüquqi hərəkətin yerinə yetirilməsinə səlahiyyət verir. Məsələn. əmanətçi öz qardaşına əmanətə və onun faizinə sərəncam verilməsi barədə etibarnamə verir və s.

Birdəfəlik etibarnamə odur ki. o, nümayəndəyə yalnız konkret əqd bağlamaq və digər hüquqi hərəkəti yerinə yetirmək üçün səlahiyyət verir. Məsələn, işçi noyabr ayının maaşını almaq üçün qardaşına etibarnamə verir.

Yaranma mənbəyinə görə etibarnamələrin iki növü vardır:

* əsas etibarnamə:
* törəmə etibarnamə.

Əsas etibarnamə dedikdə, hüquqi hərəkət etmək məqsədilə təmsil olunanın nümayəndəyə verdiyi etibarnamə başa düşülür. Törəmə etibarnamə isə odur ki, onu nümayəndə yenidən etibar etmək qaydasında başqa şəxsə verir, yəni etibar edilmiş şəxs başqa şəxsə etibar edir. Nümayəndə yalnız etibarnamədə göstərildikdə və nəzərdə tutulduqda başqa şəxsə etibarnamə verə bilər. Əgər bu, nəzərdə tutulmayıbsa, onun başqa şəxsə etibarnamə vermək hüququ yoxdur. Məsələn, vətəndaş nümayəndəyə mənzilini satmaq üçün etibarnamə verir. Etibarnamədə göstərilir ki. nümayəndə tapşırığın icrasını lazım gəldikdə başqa şəxsə tapşıra bilər. Nümayəndə xəstələnir və o, yenidən etibar etmək qaydasında başqa şəxsə etibarnamə verir. Bu, törəmə etibarnamədir.

Səlahiyyətin məhdud olması əlamətinə görə etibarnamənin iki növü fərqləndirilir:

* məhdud etibarnamə;
* qeyri-məhdud etibarnamə.

Nümayəndəyə yalnız bəzi hüquqi hərəkətlər etmək səlahiyyəti verən və bununla onun səlahiyyətini məhdudlaşdıran etibarnamə məhdud etibarnamə adlanır. Məsələn, xüsusi etibarnamə və ya birdəfəlik etibarnamə bu növ etibarnaməyə aiddir.

Qeyri-məhdud etibarnamə isə odur ki, bu etibarnamə nümayəndəyə istənilən hüquqi hərəkəti etmək səlahiyyəti verir. Baş (ümumi) etibarnamə bu kateqoriya etibarnaməyə aiddir.

Etibarnamə yazılı sənəd olub, ümumi qaydaya görə sadə yazılı formada tərtib edilir. Lakin daşınmaz əmlakın alqı-satqısı və

bağışlanması kimi notarial formada olan əqdlər üçün etibarnamə notariatda təsdiqlənməlidir. Bəzi hallarda isə notariat təsdiqi tələb olunmadan etibarnamə müvafiq orqan tərəfindən təsdiqlənir. Məsələn, xəstəxana və sanatoriyalarda müalicədə olan şəxslərin, hərbi hissələrdə komandirin təsdiqlədiyi, azadlıqdan məhrumetmə yerlərində məhbusların və sosial müdafiə müəssisələrində olan yetkin şəxslərin etibarnamələri.

Sadələşdirilmiş etibarnamələr isə əmək haqqı, müəllif haqları, pensiya, müavinət, bank əmanətləri və poçt göndərişlərinin alınması kimi əməliyyatlar üçün müdiriyyət və ya yerli icra orqanı tərəfindən təsdiqlənir. Hüquqi şəxslərin adından verilən etibarnamələr rəhbər və ya nizamnamədə göstərilmiş vəkil edilmiş şəxs tərəfindən imzalanır, möhür vurulur, pul vəsaitlərinin, əmtəə və materialların qəbul-verməsi üçün isə baş mühasibin imzası da tələb olunur.

Etibarnamənin məcburi tərkibinə təmsil olunan və nümayəndə haqqında məlumat, nümayəndənin səlahiyyətlərinin həcmi və xarakteri, tərtib tarixi və təmsil olunanın imzası daxildir. Tərtib tarixi göstərilməyən etibarnamə hüquqi əhəmiyyət daşımır. Müasir dövrdə etibarnamələr "myGov" portalı vasitəsilə elektron qaydada da rəsmiləşdirilə bilər.

Etibarnaməyə xitam verilməsi nümayəndəyə verilmiş səlahiyyətin hüquqi qüvvədən düşməsi deməkdir. Bu, aşağıdakı hallarda baş verir: müddətinin bitməsi, etibar edən tərəfindən ləğv edilməsi, fiziki şəxsin vəfatı, məhdud fəaliyyət qabiliyyətli olması, itkin düşməsi, həmçinin hüquqi şəxslərin ləğvi və ya yenidən təşkili. Etibarnaməyə xitam verildikdə nümayəndə səlahiyyətsiz sayılır, lakin xitamın olduğunu bilmədən üçüncü şəxsə qarşı həyata keçirilən əməliyyatlar etibar edən və varisləri üçün qüvvədə qalır. Törəmə etibarnamənin taleyi isə əsas etibarnaməyə bağlıdır; əsas etibarnamə qüvvədən düşəndə törəmə etibarnamə də qüvvədən düşür.